Günəş Şərqdən doğur!

❒ № 147 (5428), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 19 avqust 2021-ci il (cümə axşamı)



## Yoluxma sayı 4 mini keçdi

20 nəfər ölüb, 968 nəfər müalicə olunaraq sağalıb

(səh.8)




## "Türkiyə "Taliban"la əməkdaşlığa açıqdır"

Ərdoğan: "Əfqan xalqının sülh içində yaşaması üçün hər cür əməkdaşlığa hazırıq"

**"Hakimiyyətdə kim olursa olsun, yaxşı və pis vaxtlarda Əfqanıstanın yanında olmaq öhdəliyimizin və qardaşlığımızın tələbidir".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

(səh.2)

## Qaydışın anonsu verildi



Bir neçə aydan sonra Zəngilan rayonunun bəzi sakinləri doğma yurdlarına qayıdacaq

(səh.5)

# Ürək xəstələri mütləq vaksin olunmalıdır

## Belə xəstələr koronavirusa yoluxanda xəstəliyi 5 dəfə ağır keçirir

**Statistikaya görə, dünyada ürək xəstəliyindən ölüm halları ilk sırada qərarlaşıb.**

Bunu Səhiyyə Nazirliyinin "İnstagram" səhifəsindəki canlı yayımda Nazirliyin mütəxəssisi, dosent, invaziv-kardioloq Qalib İmanov bildirib. Onun sözlərinə görə, COVİD-19 virusu da infarkt və ürək ritminin pozulmasına səbəb olur...



(səh.9)

# Vəziyyət dəyişir

## Ermənistan proseslərin ciddiliyini anlamağa başlayıb

**Avqustun 17-də Moskvada Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun iclası keçirilib. Tərəflər müəyyən fasilədən sonra üçtərəfli işçi qrupun işini bərpa ediblər.**




(səh.6)

✓ **"Bəşəriyyət tarixinin ən həssas anını yaşayırıq"**

ÜST rəhbəri ölkələri problemlərlə birlikdə mübarizə aparmağa çağırıb (səh.2)

✓ **"Qarabağa silah daşınmasında iki məqsəd var"**

Türk general: "Sülhün qarşısını almaq, Rusiyaya ehtiyac hiss etdirmək" (səh.5)

✓ **Paşinyandan açıqlama gəldi**

"Türkiyə ilə əlaqələri normallaşdırmağa hazırıq" (səh.8)

✓ **Goranboyda mikroavtobus aşıb**

Ölənlərin sayı 4 nəfərə çatıb (səh.9)

## Aslan Aslanov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib



**Prezident İlham Əliyev Aslan Əhməd oğlu Aslanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

A. Aslanov mətbuat sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.

## Çavuşoğlu və Lavrov Əfqanıstandakı vəziyyəti müzakirə ediblər

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və Rusiya xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.**

Bu barədə Rusiya XİN-in mətbuat xidməti məlumat yayıb.

"Tərəflər Əfqanıstandakı vəziyyəti əsaslı şəkildə müzakirə ediblər, onlar vəziyyətin sabitləşməsində qarşılıqlı maraqlarını ifadə ediblər və bu ölkədəki əsas milli qüvvələri ən qısa zamanda ölkədə təhlükəsizliyi və asayişi təmin etməyə çağırıblar", - deyə XİN-in məlumatında bildirilib.

XİN başçıları həmçinin beynəlxalq və ikitərəfli gündəmdə olan digər məsələlərə də toxunublar.

# "Türkiyə "Taliban"la əməkdaşlığa açıqdır"

### Ərdoğan: "Əfqan xalqının sülh içində yaşaması üçün hər cür əməkdaşlığa hazırıq"




**"Hakimiyyətdə kim olursa olsun, yaxşı və pis vaxtlarda Əfqanıstanın yanında olmaq öhdəliyimizin və qardaşlığımızın tələbidir".**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

**Ərdoğan bildirib ki, Türkiyə "Taliban"la əməkdaşlığa açıqdır:**

"Daha əvvəl də "Taliban" liderlərini qəbul edə biləcəyimizi bildirmişdik. Bu mövqeyi bu gün də qoruyuruq. Həm də Taliban liderlərinin mülayim açıqlamalarını alqışlayırıq. Əfqan xalqının sülh içində yaşamasını, bu ölkədəki türk soydaşlarımızın rifahı və ölkəmizin maraqlarının qorunması üçün hər cür əməkdaşlığa hazırıq".

Onun sözlərinə görə, Əfqanıstandakı Türkiyə sülhməramlıları heç zaman hərbi əməliyyatlarda istifadə edilməyib: "Türkiyənin Əfqanıstanda hərbi varlığı yeni rəhbərliyin beynəlxalq arenada fəaliyyətini gücləndirəcək və işini asanlaşdıracaq".

*Türkiyə Prezidenti əlavə edib ki, Əfqanıstandan ümumilikdə 552 Türkiyə vətəndaşı təxliyə edilib.*

# Kabil aeroportundakı ABŞ hərbçilərinin sayı 4,5 min nəfərə çatıb

## Daha 42 nəfər Türkiyə vətəndaşı Əfqanıstandan təxliyə edilib





Kabil aeroportunda hazırda 4,5 minə yaxın ABŞ hərbçisi var.

Bu barədə Reuters agentliyi Birləşmiş Ştatlar hakimiyyətinin nümayəndəsinə istinadla məlumat yayıb. Onun məlumatına görə, yaxın bir neçə gündə bu rəqəm 6 min nəfərə çatacaq.

Əfqanıstan paytaxtından təxliyə əməliyyatları zamanı logistika məsələlərinə cavabdeh olan general Henk Teylor Pentaqonda keçirilən brifinqdə bildirmişdi ki, avqustun 17-də günün sonunadək Əfqanıstanda ABŞ hərbi kontingenti 4 mini ötməlidir. Dövlət Departamenti və Pentaqonun bazar günü yayılan bəyanatında deyilirdi ki, Əfqanıstanda ABŞ hərbi qulluqçularının sayı 48 saat ərzində 6 min nəfərədək genişləndiriləcək. Onların yeganə məqsədi amerikalıların və onlara kömək etmiş əfqanların ölkədən çıxarılmasıdır.

Avqustun 15-də paytaxt Kabilə döyüşsüz daxil olan "Taliban" hərəkatının silahlı dəstələri şəhəri qısa müddətdə nəzarətə götürüb. Prezident Əşrəf Qani qan tökülməsinin qarşısını almaq üçün istefa verərək ölkəni tərk edib. Qərb ölkələri öz vətəndaşlarını və səfirlik əməkdaşlarını Əfqanıstandan təcili təxliyə edir.

"Taliban"ın Əfqanıstanın bütün ərazisini nəzarətə götürdüyünü elan etməsindən sonra bu ölkədə olan və vətənə qayıtmaq istəyən Türkiyə vətəndaşlarının təxliyəsinə başlanılıb. Türkiyə vətəndaşlarının təxliyəsi üçün göndərilən ikinci təyyarə ilə Əfqanıstandan daha 42 nəfər vətənə gətirilib.

Təxliyə prosesini həyata keçirən Türkiyə Silahlı Qüvvələrinə aid təyyarə Kabildə baş verən qarışıqlıq səbəbindən bu şəhərdəki aeroporta eniş edə bilməyərək Pakistanın paytaxtı İslamabada yönləndirilib. Gecə saatlarında Kabilin Hamid Karzai beynəlxalq hava limanına eniş edən təyyarə 42 nəfəri İslamabada gətirib. Həmin vətəndaşlar buradan "Türk Hava Yolları" şirkətinə aid təyyarə ilə Vətənə çatdırılıb.

Onlar COVID-19 ilə bağlı müvafiq prosedurlar çərçivəsində evlərində karantin rejimində qalacaqlar.

*Xatırladaq ki, avqustun 16-da ilk təxliyə əməliyyatı zamanı 324 nəfər Türkiyə vətəndaşı Əfqanıstandan çıxarılıb.*

**İsmayıl**

## "Bəşəriyyət tarixinin ən həssas anını yaşayırıq"

### ÜST rəhbəri ölkələri problemlərlə birlikdə mübarizə aparmağa çağırıb



**"Koronavirus pandemiyası ilə yanaşı, təbii fəlakətlər, münaqişələr və iqlim dəyişikliyi də daxil olmaqla, digər fövqəladə hallarla üzləşdiyimizdən bəşəriyyət tarixinin ən həssas anını yaşayırıq".**

"Report" TASS-a istinadən xəbər verir ki, bu fikri Cenevrədə keçirdiyi brifinqdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesus söyləyib.

O, ölkələri özünü təcrid etmək istəyinə qapılmadan problemlərlə birlikdə mübarizə aparmağa çağırıb. "Düzü, bu qədər çox fövqəladə halın eyni vaxtda baş verdiyini heç vaxt görməmişəm. Bütün bunlar humanitar sistemi onun mütləq həddinə doğru və hətta daha da irəli sürükləyir", - o, bildirib.

## Türkiyə İranla sərhədə beton divar çəkəcək



**"İranla dövlət sərhədimizdə Ağrı, Hakkari, İğdır və Van olmaqla 4 vilayətimiz var. Həmin sərhəd boyu divar çəkiləcək".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Onun sözlərinə görə, artıq Ağrı və İğdır vilayətlərində divarın çəkilməsi işləri yekunlaşıb.

*Qeyd edək ki, Türkiyə bundan əvvəl Suriya sərhədində beton bloklardan ibarət təhlükəsizlik divarı inşa etmişdi.*

# Nazirlər vəziyyəti dəyərləndirib

## Düşmənin istənilən təxribatının qarşısı Azərbaycan-Türkiyə birliyi tərəfindən qətiyyətlə dəf ediləcək



**“IDEF - 2021” Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək məqsədilə İstanbul şəhərində səfərdə olan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov türkiyəli həmkarı Hulusi Akarla görüşüb. Görüşdə tərəflər müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd ediblər.**

Həmçinin, müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Regional təhlükəsizlik, ikitərəfli münasibətlər, eləcə də maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Nazirlərin məhz indiki məqamda, gərgin proseslərin yaşandığı günlərdə bir araya gəlməsi ilə bağlı ”Şərq”ə danışan politoloq Tofiq Abbasov deyib ki, Ermənistan kapitulyasiya sənədinə imza ataraq məğlubiyyətini qəbul etsə də, son dövrlər bölgədə yeni təhdidlərin şahidi oluruq.** Analitik vurğulayıb ki, məntiqlə məğlub tərəf özünü sakit, çəkingən aparmalıdır. Amma İrəvan hökuməti tamam fərqli davranış sərgiləyir: ”Erməni tərəfi hər gün təxribatlara əl atır, sərhəddə gərginlik yaradır, müzakirələrin gedişatını pozur. Eyni zamanda diplomatik yollarla, bir sıra xarici ölkələrin və qurumların əliylə Azərbaycana təzyiq göstərməyə çalışır. Əlbəttə, bu, boş yerə deyil və sadəcə, Ermənistanın başının altından çıxan məsələ kimi görünməməlidir. Burada xarici qüvvələrin əlləri və rolları açıq sezilir. Təsadüfi deyil ki, Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Prezident İlham Əliyev bir daha Ermənistana xəbərdarlıq etdi. Ondan əvvəl Azərbaycanın Müdafiə Nazirliyi sərt bəyanat yaydı. Hamıya məlumdur ki, Azərbaycan və Türkiyənin hərbi sahədə əməkdaşlığı genişmiqyaslıdır. Son dövrlər atılan addımlarla qardaş ölkə ilə hərbi əməkdaşlığın yeni mərhələsinə qədəm qoyulub. Bu əməkdaşlıq kimlərsə üçün təhdid kimi görünə bilər. Amma bu, zərurətdən doğan yaxınlıq və əlaqələrimizin daha da genişləndirilməsidir. Çünki Ermənistan daim özgə qüvvələrin əlində alətə çevrilərək bölgədə gərginlik yaratmaq niyyətindən əl çəkmir. İndi də eyni siyasəti həyata keçirir və xalqını dirçəltmək, ölkəni inkişaf etdirmək əvəzinə növbəti provakasiyalara əl atır”.

**Siyasi şərhçiyə görə, bölgədə sabitliyin qorunmasının, etibarlı regiona çevrilməsinin qarantı Azərbaycan-Türkiyə tandemidir:** ”Rahatlanmaq olmaz, çünki ermənilər və onların havadarları yeni hazırlıqlar görürlər. Təbii ki, düşmənin istənilən təxribatının qarşısı Azərbaycan-Türkiyə birliyi tərəfindən qətiyyətlə dəf ediləcək”.

**İsmayıl Qocayev**



## Ermənistan anlamalıdır ki, Bakı ilə dost olmaq ona daha sərfəlidir

### Səməd Seyidov: “Dövlət başçısı göstərdi ki, böyük qayıdış sözdə yox, əməldədir”

**“Dövlət başçısı göstərdi ki, böyük qayıdış sözdə yox, əməldədir”.**

Bu sözləri Prezident İlham Əliyevin Kəlbəcər və Laçına səfəri barədə ”Şərq”ə danışan millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

**Deputat bildirib ki, düşmən Prezidentin çıxışından nəticə çıxarmalıdır:** ”Dövlət başçısının ”Bizim qonşumuz və Ermənistanın strateji müttəfiqi” ifadəsində çox ciddi mesaj var. Bu, dünyanı öz siyasəti ilə dəyişdirən siyasətçinin kəlamıdır. Səfər İrəvanın bütün cəhdlərini alt-üst etdi. Biz göstərdik ki, hər şeyə rəğmən, Qarabağ Azərbaycanın daxilində inkişaf etməkdə olan ərazidir.. Azərbaycanın Qarabağı dirçəltmək, orada yenidənqurma işlərini həyata keçirməkdən ötrü lazımi potensialı var. Düşmən başa düşməlidir ki, Bakı ilə dost olmaq ona daha sərfəlidir. Əks halda, öz sərhədləri daxilində ”boğulacaq””.

**Kənan**



## Yanğınsöndürmə maşınına Azərbaycan tərəfdən atəş açılması yalandır

### Belə bir fakt Rusiya sülhməramlıları tərəfindən də qeydə alınmayıb

**Müdafiə Nazirliyi avqustun 17-si saat 20:40-da yanğın baş verən əraziyə alovu söndürmək məqsədilə gələn yanğınsöndürmə maşınına Azərbaycan Ordusunun bölmələri tərəfindən guya atəş açılması barədə Ermənistan mətbuatının yaydığı məlumatla bağlı açıqlama verib.**

Nazirlikdən ”Şərq”ə verilən məlumatda bildirilir ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki Qaybalı yaşayış məntəqəsi tərəfdə, dağətəyi ərazidəki quru otlaq sahəsində saat 18.00 radələrində başlayan yanğının bu istiqamətdə hündürlükdə yerləşən bölmələrimiz tərəfindən vizual müşahidə olunub.

Yanğının genişlənməməsi və vaxtında söndürülməsi məqsədilə Rusiya sülhməramlılarına dərhal məlumat verilib.

Bildiririk ki, bu istiqamətdə, xüsusilə də yanğınsöndürən maşına bölmələrimiz tərəfindən guya atəş açılması barədə qarşı tərəfin yaydığı məlumat yalandır və belə bir fakt Rusiya sülhməramlıları tərəfindən də qeydə alınmayıb.

# Bu hələ başlanğıcdır

## Azərbaycanın Türkiyə ilə hərtərəfli əməkdaşlığı gələcəkdə də davam edəcək

Prezident İlham Əliyev "CNN Türk" televiziyasına müsahibəsi zamanı Azərbaycan-Türkiyə əlaqələrindən danışıb. O bildirib ki, "Bu gün dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Əgər axtarmaq istəsəniz, tapa bilməzsiniz, yoxdur.

”Bu birlik, həmrəylik, qardaşlıq sözdə deyil, əməldədir. Mən hər zaman deyirdim ki, ölkələr arasındakı münasibətlər əməldə olmalıdır. Çünki yaxşı günlərdə hər kəs yaxşı sözlər deyə bilər, yaxşı çıxışlar edə bilər. Amma ağır gündə sən gəl yanında dur. Necə ki, Türkiyə İkinci Qarabağ savaşında bizim yanımızda durdu. Mən tam əminəm ki, Türkiyə amili olmasaydı, ermənipərəst qüvvələr, ölkələr, ermənilərin hamiləri burunlarını soxacaqdılar və bizə böyük problemlər yaradacaqdılar. Bizim həmrəyliyimiz və bir-birimizə etdiyimiz yardımlar təbiidir. Çünki Türkiyə bizim üçün doğma ölkə, doğma vətəndir və sizin üçün də Azərbaycan doğma vətəndir. Əziz qardaşımla imzaladığım Şuşa Bəyannaməsi bunun zirvəsidir. Yəni bizim əlaqələrimiz müttəfiqlik səviyyəsinə qalxdı”.



### “Ərdoğanın bəyanatı üçüncü qüvvələri çəkindirdi”

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bu barədə ”Şərq”ə danışıb:** ”Türkiyə müharibə dövründə bizə hərtərəfli, xüsusilə də siyasi dəstək verdi. Məhz bu dəstək digər güclərin proseslərə qarışmasının qarşısını aldı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ”Kim məsələlərə müdaxilə etsə, qarşısında bizi görəcək” bəyanatı üçüncü qüvvələri çəkindirdi. Çünki hər kəs Türkiyə ordusunun nəyə qadir olduğunu bilir. Beləliklə, ilk dəfə Azərbaycan və Ermənistan təkbətək mübarizə apardılar. Və ən müasir silahlarla təmin edilmiş ordumuz öz sözünü dedi”.

**A. Mollazadənin sözlərinə görə, Bakı ilə Ankara arasındakı əlaqələr gələcəkdə daha da inkişaf edəcək:** ”Prezident İlham Əliyevin də dediyi kimi, bizim münasibətlərimiz ortaq dil, din amilinə görə deyil. Dünyada eyni dinli, eyni dilli, amma müharibə aparan dövlətlər heç də az deyil. Azərbaycan-Türkiyə əlaqələri isə dünyaya nümunədir. Bizim birgə işlərimiz gələcəkdə də davam edəcək. Bu, hələ başlanğıcdır”.

**Kənan**



# Əfqan xalqı sınağa çəkilir

## “Taliban”la dialoqa başlamağa çalışanlar az deyil

Amerikalıların Əfqanıstandan getməsi son 40 il ərzində beynəlxalq arenada Vaşinqton üçün ən böyük təhqirdir. Bunu ABŞ-ın keçmiş vitse-prezidenti Mayk Pens deyib. Onun sözlərinə görə, Bayden administrasiyasının Əfqanıstandan fəlakətli gedişi xarici siyasətin iflasıdır: "Ölkə İran böhranı zamanı əsirlərlə bağlı yaranan problemdən bu yana belə təhqir yaşamayıb".



**“Taliban” Baydenin reytinqini çökdürdü**

ABŞ Prezidenti Co Baydenin reytinqi 46 faizə qədər geriləyib. Bu nəticə ”İpsos” şirkətinin keçirdiyi sorğudan sonra ortaya çıxıb. Məlumata görə, Baydenin reytinqi Əfqanıstanda ”Taliban”ın hakimiyyətə gəlməsindən sonra bu qədər geriləyib. Qeyd edək ki, bu, indiyə qədər Baydenin qeydə alınan ən aşağı reytinqidir.

**Əfqanıstan fəlakətində ABŞ elitası günahkardır**

”The American Conservative” qəzeti iddia edib ki, ABŞ-ın Əfqanıstandan çıxması Amerika elitasının intellektual və əxlaqi baxımdan iflasıdır. Nəşrin yazdığına görə, Vaşinqtonun siyasəti İranın İraqda hökmranlığına, Suriyada nüfuzun Dəməşq, Türkiyə və kürdlər arasında bölünməsinə, Əfqanıstanda ”Taliban”ın ağalığına gətirib çıxarıb: ”Corc Buşun xaç yürüşündən çıxan nəticə budur. Obama, Tramp və Baydenin simasındakı Amerikanın liderliyindən qalan budur. Ən vacibi odur ki, Əfqanıstan fəlakətində Pentaqon, Dövlət Departamenti rəhbərliyi, eləcə də xarici siyasət və milli təhlükəsizlik elitası günahkardır”.

**ABŞ Əfqanıstanın rezervlərini dondurdu**

ABŞ Əfqanıstan Mərkəzi Bankının ölkə banklarında saxlanılan rezervlərini dondurub. Prezident Administrasiyası ölkə banklarında olan rezervlərin ”Taliban”a verilməyəcəyini vurğulayıb. Qeyd edək ki, Əfqanıstan Mərkəzi Bankının rezervləri 9,4 milyard dollar təşkil edir. Bu rezervlərin böyük hissəsi Nyu-Yorkda Federal Rezerv Bankında saxlanılır.

## ABŞ-ın Əfqanıstanda udub-uduzacağını birmənalı demək olmaz

**“Mənfəətlərimiz üçün hər kəslə danışmalıyıq”**

Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, əgər Amerika ”Taliban”la müqavilə imzalayanda problem olmursa, Ankaranın da görüşməsi problem olmamalıdır: ”Öz mənfəətimiz üçün hər kəslə danışmalıyıq. Bu, onların idarəçiliyini və ideologiyasını mənimsədiyimiz mənasına gəlmir. Çin, Rusiya, İran ”Taliban”la danışıqlar aparır. Bunlar normal şeylərdir. Sosial mediada ”Türkiyə dünyəvidir, ”Taliban” rejimini mənimsədikmi?” kimi ifadələr gördüm. Hazırda ”Taliban”ın hava limanına heç bir müdaxiləsi yoxdur. Biz dedik ki, bunu alqışlayırıq. ”Taliban” rəhbərliyini və rejimini qəbul edirik, bunu alqışlayırıq demədik”.

**“Qərb ”Taliban”ı sivil siyasi hərəkat və ya təşkilat saymır, amma...”**

**Vətəndaş Həmrəyliyi Partiyası sədrinin müavini Samir Əsədli isə ”Şərq”ə vurğulayıb ki, Əfqanıstanda baş verənlər lazım olduğundan çox dramatikləşdirilir.** Partiya rəsmisinin sözlərinə görə, hakimiyyət dəyişikliyi qanuni yolla baş verməsə də, mövcud vəziyyət əfqanlar üçün faciəvi deyil: ”Kabillilərin tam əksəriyyətinin hakimiyyət dəyişikliyi veclərinə deyil. Çünki onlar üçün heç nə dəyişmir. Əsas odur ki, atışmalar, partlayışlar, müharibə olmasın. Əyalətlərdə və xüsusilə kəndlərdə yerli sakinlər sakitdir. Deyirlər, talibər ölkəni şəriət qanunları ilə tətbiq edəcək. Onsuz da əfqan dehqanların, yəni kəndlilərin tam əksəriyyəti şəriət qanunları ilə yaşayırlar. Digər bir məqam, dünyanın ”Taliban” hökumətinə münasibətidir. ”Taliban”la dialoqa başlamağa və Əfqanıstanda möhkəmlənməyə çalışanlar az deyil. Talibər terrorçu sayılanda, ABŞ onları bombalayanda və mahiyyət etibarilə, bütün regiona Pentaqonun hazırladığı ”gec açılan bomba” olanda vəziyyət fərqli idi. Əfqanıstan taliblərin əlinə keçəndən sonra situasiya dəyişib. Əfqanıstanla bütün ticari əməliyyatlar məhdudlaşacaq, çünki araşdırma mərhələsi olacaq. Qərb ”Taliban”ı sivil siyasi hərəkat və ya təşkilat saymır, amma zamanla taliblərlə müqavilələr imzalanacaq və anlaşmalar əldə olunacaq”.

**Əfqanıstanı tərk edən amerikalılar bölgə ölkələri üçün “hədiyyə” qoyub gedirlər**

**S.Əsədli vurğulayıb ki, ABŞ-ın Əfqanıstanda udub-uduzacağını birmənalı demək olmaz:** ”Amerika yüz milyardlarla dollar xərclədiyi Əfqanıstandan çıxır. Amma amerikalılar Əfqanıstandan on dəfə artıq gəlir əldə ediblər. Hərbi müqavilələrdən tutmuş, tiryək və heroin alverinədək bir çox sahədən qazanc götürüblər. ABŞ okeanın o tayındadır. Əfqanıstanı tərk edən amerikalılar bölgə ölkələri üçün ”hədiyyə” qoyub gedirlər. Region dövlətləri indi ”Taliban” adlı xərçəng şişi ilə nə etməyi düşünür. Buna görə də ABŞ-ı uduzmuş saymaq olmaz. Region ölkələri isə yeni durumla üz-üzə qalıb”.

**İsmayıl Qocayev**



## Britaniya Əfqanıstandan 20 min qaçqın qəbul edəcək

**Böyük Britaniya hökuməti Əfqanıstandan 20 min qaçqının krallıq ərazisinə köçürülməsini nəzərdə tutan proqramı razılaşdırıb.**

APA ”Daily Telegraph”a istinadən xəbər verir ki, bunu ölkənin daxili işlər naziri Priti Patel bildirib.

O, AB-ni və digər ölkələri Britaniyadan nümunə götürməyə çağırıb.

”Əfqanıstan vətəndaşlarının köçürülməsi ilə bağlı yeni proqram ölkəsini tərk etmək məcburiyyətində qalan 20 minə qədər əfqanı qəbul etməyimizə imkan verəcək. İlk 5 min nəfər gələn il gələcək”, - nazir belə deyib.

O, Britaniyanın tək addım ata bilməyəcəyini və ”Taliban” hərəkatının hakimiyyətə qayıtmasından sonra Əfqanıstan əhalisinə kömək etməyin vacibliyinin digər Qərb dövlətləri ilə müzakirə olunduğunu açıqlayıb.

## Yaxın Şərqə artıq Türkiyə nəzarət edəcək

### Maniçça: “ABŞ regiondakı son müttəfiqlərini də itirib”

**ABŞ-ın gedişindən sonra Əfqanıstandan Liviyaya qədər olan ərazidə yeni geosiyasi güc Türkiyə, Rusiya və Çin sayılır.**

Axar.az xəbər verir ki, bunu italiyalı ekspert, Əfqanıstan hökumətinin keçmiş müşaviri Qabriyel Maniçça deyib. Onun sözlərinə görə, Kabilin taliblər tərəfindən ələ keçirilməsindən sonra ABŞ regiondakı son müttəfiqlərini də itirib:

”Böyük ehtimalla, taliblər iki istiqamətdə hərəkət edəcəklər. Bir tərəf dialoq aparacaq, digər tərəf keçmiş rejimlə kompromisləri məhv edəcək, qadınları qapalı yerdə saxlayacaq, ərazisində terror aparacaq. Hazırda əsas məsələ odur ki, taliblər Səudiyyə Ərəbistanı olmadan ölkəni idarə biləcəklərmi? ABŞ-ın Əfqanıstandan gedişindən sonra dünyanın bu hissəsində yeni geosiyasi kombinasiya formalaşacaq və yeni simalarla yeni ssenari işə salınacaq”.

## Əfqanıstanın keçmiş prezidenti Həmid Kərzai "Taliban"la görüşüb



**Əfqanıstanın keçmiş Prezidenti Həmid Kərzai və Milli Barışıq üzrə Ali Şuranın sədri Abdulla Abdulla ”Taliban”la görüşüb.**

APA-nın ”Khaama” agentliyinə istinadən verdiyi xəbərə görə, görüş bu gün Kabildə baş tutub.

Agentlik bildirib ki, Həmid Kərzai və Abdulla Abdulla ”Taliban”ın Dohadakı müzakirələr komandasının üzvü və Əfqanıstan İslam Əmirliyinin üç vəkilindən biri Saracudind Haqqaninin qardaşı Anas Haqqani ilə görüşüb.

Görüşdə həmçinin Nümayəndələr Palatasının spikeri Fazal Hadi Muslimyar və ovaxtkı prezident Həmid Kərzainin administrasiyasının rəhbəri Kərim Xurram da iştirak edib.

Görüşdə medianın iştirakına icazə verilməyib.



# "Qarabağa silah daşınmasında iki məqsəd var"

## Türk general: "Sülhün qarşısını almaq, Rusiyaya ehtiyac hiss etdirmək"

*Prezident İlham Əliyev "CNN Türk" televiziyasının müxbirinə müsahibəsində Laçın dəhlizi ilə bağlı bəzi iddialara münasibət bildirib. O deyib ki, Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli Bəyanatına ziddir. Təəssüf ki, bu günə qədər davam edir. Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik. Ancaq bunun nəticəsi olmadı, ona görə biz rəsmi qaydada bunu bildirdik.*

"Siz Şuşada olarkən Laçın dəhlizini görə bilərsiniz. Orada bir yer var, yuxarıdan bütün avtomobillər görünür. Oradan məsafə, bəlkə də, 10 metrdir. Bizim orada təbii ki, texniki vasitələrimiz, kameralarımız var. Biz Laçın dəhlizi ilə Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri də izləyirik. Xankəndiyə gedən avtomobillərin sayını dəqiqliyi ilə bilirik. Bu yaxınlarda bizim mətbuatda bu məsələ ilə bağlı açıqlama verildi, o cümlədən göstərildi ki, son bir ay ərzində - iyulun 11-dən avqustun 8-dək təqribən 5 minə yaxın insan Xankəndindən Ermənistan tərəfinə getdi və qayıtmadı. Yəni oradan 20 min insan çıxdı və 15 min insan oraya girdi. Deməli, biz insanların sayına qədər bilirik. Təbii ki, buna son qoyulmalıdır. Çünki bunun heç bir məntiqi əsası yoxdur. Nədir, Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik. Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır" - deyə, dövlət başçısı əlavə edib.

**Türkiyəli ehtiyatda olan general Osman Qazi Kandemir Prezidentin fikirlərini "Şərq"ə şərh edib:** "İkinci Qarabağ müharibəsi zamanı bəziləri deyirdi ki, Rusiya Ermənistan Baş naziri Nikol Paşinyanı cəzalandırmaqdan ötrü Azərbaycanın əks-hücum əməliyyatlarına səssiz qalır. Biz isə etiraz edirdik. Bildirirdik ki, istənilən halda iki yüz ildir qoruduğu Ermənistanı tək qoymaz. Əslində Kreml üçün təhlükə Paşinyan hakimiyyətə gələndə başlamışdı. Ermənistanda yerli ermənilərlə Qarabağ erməniləri arasındakı iqtidar mübarizəsi birincilərin xeyri ilə davam edirdi. Onlar Qarabağın işğalına görə ölkələrinin təcrid edilməsindən, iqtisadi gerilikdən və daimi köçdən bezmişdilər. Haqlı olaraq düşünürdülər ki, iqtisadi gəlir əldə edə bilməyimiz torpaqlar üçün niyə fədakarlıq edək? "Qarabağ klanı" isə əksinə, "Hər şeydən əvvəl Qarabağ" deyənlərdən ibarətdir. Onların çöküşü çoxdan başlayıb. Müharibə vaxtı Şuşanın azad edilməsindən sonra Rusiyanın tərəfləri sülhə çağırması təsadüfi deyildi. Moskva bununla bir tərəfdən İrəvana "Mən olmasaydım, məhv olacaqdınız" mesajını verib, digər tərəfdən "arxa bağçasındakı" mövcudluğunu qorudu.

### "Bununla həm də sülhməramlıların Qarabağda fəaliyyət müddətini uzatmağa çalışırlar"

**General, həmçinin təxribatların məqsədindən də danışıb:** "Savaşdan sonra Ermənistanda keçirilən erkən parlament seçkiləri və Paşinyanın yenidən qalib gəlməsi Kremlin planlarını pozdu. Moskva elə bilirdi ki, məğlubiyyətin təsiri ilə Paşinyan devriləcək və hakimiyyətə ruspərəst siyasətçi gələcək. Lakin istədiyi olmadı. Eyni zamanda Ermənistanın daxilində və qondarma Dağlıq Qarabağda "Qarabağ klanı"nın hökmranlıq etdiyi bir qrup var. Onlar Rusiya siyasətinə çox yaxındırlar. Məqsədləri atəşkəsi pozmaqdır. Çünki atəşkəs uğursuz olsa və Azərbaycan bir neçə yerdə əks-hücuma başlasa, "erməni qətliamı" adı ilə dünyaya səs-küy salmaq istəyirlər. Belə davranışları ilə sülhməramlıların fəaliyyət müddətini uzatmağa çalışacaqlar. Yəni Qarabağa silah daşınmasında iki məqsəd var: sülhün qarşısını almaq, Rusiyaya ehtiyac hiss etdirmək. Çünki əks halda sülhməramlılara "güləgülə" deyiləcək. İkinci hədəf Paşinyanı devirmək, iqtidarı dəyişməkdir. Kiçik iqtidar mübarizələri üçün insanların və dövlətlərin həyatını qaraltmağın mənası yoxdur".

**Kənan Novruzov**





# DSX-nin iki generalı ehtiyata buraxılıb

**Dövlət Sərhəd Xidmətinin (DSX) iki generalı ehtiyata buraxılıb.**

DSX-nin aparatında Azərbaycan Sərhəd Mühafizəsinin 102-ci ildönümü münasibətilə keçirilən mərasimdə DSX rəisinin Silahlı Qüvvələrin ehtiyatına buraxılmış sabiq müavinləri general-leytenant Azad Ələkbərov və general-leytenant İsmayıl Əkbərov Dövlət Sərhəd Xidmətinin döyüş bayrağı ilə vidalaşıblar.

Tədbir zamanı Prezident İlham Əliyevin 17 avqust tarixli Sərəncamları şəxsi heyətə elan edilib, zabitlərə ali hərbi rütbələr təqdim olunub, Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edib, döyüşlər zamanı şəxsi igidlik və şücaət göstərdiklərinə görə təltif olunmuş hərbi qulluqçulara orden və medallar təqdim edilib.

# Politoloq proqnozlarını açıqladı

## "Taliban" Əfqanıstanda sabitliyi qoruyub, ölkəni inkişaf etdirə bilər"

**Əfqanıstanda "Taliban" artıq yeni hökumət qurub. Hərəkat üzvləri kütləvi əfv elan edir, yerli əhalini hər şeyin yaxşı olduğuna inandırırlar. Bundan sonra proseslərin necə inkişaf edəcəyi isə hələlik məlum deyil.**

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli bu barədə proqnozlarını "Şərq"lə bölüşüb:** "Qonşu ölkələr üçün yaxın gələcəkdə hansısa təhlükənin yaranacağını düşünmürəm. "Taliban" Əfqanıstanda sabitliyi qoruyub, ölkəni inkişaf etdirə bilər. Hələlik müsbət qərarlar verilir. Amma hakimiyyətdə möhkəmləndən sonra hərəkatın yenidən mühafizəkar mövqe sərgiləyəcəyi istisna deyil".

**Ə.Məmmədlinin fikrincə, rəsmi Bakı "Taliban"ı tanımaqda tələsməməlidir:** "Dünya onları tanısa, Azərbaycan da tanıyacaq. Dünya tanımasa, Azərbaycan da tanımayacaq. Hər halda bu, nə "Taliban", nə də Azərbaycan üçün o qədər də əhəmiyyətli deyil. Ən doğrusu, bu mövzuda Türkiyənin siyasi xətti ilə getməkdir".

**Kənan**

# Qaydışın anonsu verildi

## Bir neçə aydan sonra Zəngilan rayonunun bəzi sakinləri doğma yurdlarına qayıdacaq

*"Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağının ucaldılması mərasimində çıxış edərkən deyib. Dövlət başçısı bildirib ki, indiki mərhələdə əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir:*

"Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq".



Zəngilan rayonu Turabad kəndi

**Prezidentin qayıdışla bağlı fikirlərinə münasibət bildirən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Şərq"ə açıqlamasında deyib ki, artıq möhtəşəm qələbəmizdən sonra "Böyük Qayıdış"a da başlanılmalıdır:** "Bilirsiniz ki, vətəndaşlarımız 30 ildir ki, öz doğma yurd-yuvalarına qayıtmaq istəyirlər. Sevindirici haldır ki, cənab Prezident İlham Əliyev bir neçə aydan sonra bu prosesə start veriləcəyini bildirdi. Axır ki, işğaldan azad olunmuş bölgələrimizə öz doğma sakinləri qayıdacaq. Hesab edirəm ki, bu, "Böyük Qayıdış" böyük qələbənin, əldə edilmiş nəticələrin yekunu olacaq. Düzdür, hazırda müəyyən narahatlıqlar var, insanlar tələsirlər ki, yurdlarına tez qayıtsınlar. Təbii ki, bu, başadüşüləndir. Ancaq daha geniş miqyasda bütün işğaldan azad olunmuş ərazilərə böyük köçlərin başlanması üçün evlər tikilməli və paralel şəkildə infrastrukturlar qurulmalıdır. Fikrimcə, ilkin mərhələdə insanların müəyyən qruplarla öz yurduna ziyarətinin təşkil edilməsi çox mühüm olar. Elə bunun özü də "Böyük Qayıdış"ın tərkib hissəsidir. Eyni zamanda, insanlar 30 ildir ki, yaxınlarını başqa yerlərdə dəfn ediblər. Düşünürük ki, işğaldan azad olunmuş ərazilərimizdə qəbiristanlıqların müəyyən bir hissəsi minalardan təmizlənməli və insanlar doğmalarını 5-6 nəfərlə həmin yerlərdə dəfn etməlidirlər. Hesab edirəm ki, bu istiqamətdə işlər görülməlidir və insanların həsrətinə tezliklə son qoyulmalıdır".

**Akif Nağı:**
*"Axır ki, işğaldan azad olunmuş bölgələrimizə öz doğma sakinləri qayıdacaq"*



**Aynurə Pənahqızı**

# "Ən ideal yol hələ ki danışıqlardır"



## Turab Rzayev: "Üçtərəfli bəyannamədən imtina etsək, əvvəlki vəziyyətə qayıda bilməyəcəyik"

Rusiya, Azərbaycan və Ermənistan baş nazir müavinlərindən ibarət üçtərəfli işçi qrupu yenidən işə başlayıb. Moskvada keçirilən növbəti görüşdə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev, onun ermənistanlı həmkarı Mqer Qriqoryan və Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk iştirak ediblər. "Avqustun 17-də Moskvada keçirilən görüşdə tərəflər Cənubi Qafqaz regionunda nəqliyyat kommunikasiyalarının bərpasının perspektivləri və Azərbaycan Prezidenti, Ermənistan Baş naziri və Rusiya Prezidentinin 2021-ci il yanvarın 11-də imzaladıqları Bəyanatın yerinə yetirilməsi məsələləri müzakirə olunub", - məlumatda deyilir.

**Maraqlıdır, üçtərəfli işçi qrupu hansısa nəticəyə nail olacaq, ya artıq tarixə düşmüş ATƏT-in Minsk qrupu kimi fəaliyyətsizliyi ilə seçiləcək?**

*"Şərq" olaraq siyasi analitik Turab Rzayevlə bu məsələləri müzakirə etdik:*

- Sizcə, üçtərəfli işçi qrupu proseslərin həlli istiqamətində nə isə edəcək?

- Buna inanmıram. Çünki dövlətlərin prioritetləri fərqlidir. Azərbaycan kommunikasiya xətlərinin açılmasını və vaxt keçdikcə digər torpaqların da öz nəzarətinə keçməsini istəyir. Ermənistanın arzusu sülhməramlılar olduğu yerdə məskunlaşan əhaliyə müstəqillik və status verilməsidir. İrəvan, həmçinin beynəlxalq ictimaiyyətin diqqətini çəkmək istəyir. Paşinyan hökumətinin məqsədi zədələnmiş reputasiyasını Qərbin dəstəyi ilə bərpa etməkdir.

**- Bəs Rusiya?**

- Rusiya regionda sabitlikdə, sülhdə maraqlıdır. Digər tərəfdən isə Qarabağ məsələsindən Azərbaycana və Ermənistana qarşı təzyiq vasitəsi kimi istifadə edir və gələcəkdə bu "kozır"ı əldən vermək barədə düşünmür. Moskva həm də Bakını Avrasiya İqtisadi Birliyinə, Gömrük İttifaqına, KTMT-yə üzv etməyə cəhd göstərir. Yeni mövqelər üst-üstə düşmür. Bu isə o deməkdir ki, üçtərəfli işçi qrupunda fikir ayrılığının yaşanacağı dəqiqdir.

**- Bəs ideal yol nədir?**

- Danışıqlar. Sadəcə, təzyiqləri artırmalıyıq. Elə etməliyik ki, Rusiya mövqeyimizi qəbul etsin. Ermənistana qarşı isə "kökə və qamçı" siyasətindən yararlanmaq məqsədəuyğundur. İqtisadi əməkdaşlığın onun özü üçün faydalı olduğunu İrəvana başa salmalıyıq.

**- Növbəti müharibə ehtimalı nə qədərdir?**

- Əlbəttə, "Damokl qılıncı" daim Ermənistanın başı üzərində olmalıdır. Düşmən bilməlidir ki, təxribat ciddi müqavimətə səbəb olacaq. İrəvanın sülh və inteqrasiya yolunu tutmaması ona fəlakətlər gətirə bilər. Ancaq dediyim kimi, ən optimal variant münaqişəni müzakirələrlə həll etməkdir.

**"Amma sənədin hansısa şərtləri müzakirə edilə bilər. Məsələn, Zəngəzur dəhlizi açılmırsa, biz də Laçın dəhlizini bağlamaq məsələsini gündəmə gətirməliyik"**

**- Bəziləri düşünürlər ki, Moskva və İrəvan üçtərəfli bəyannaməyə uyğun davranmırsa, Bakı da sənəddən imtina etməlidir. Bu təklifə münasibətiniz necədir?**

- Həmin mövqedə olanları prinsipial baxımdan başa düşmək olar. Biz deyure olaraq bu məsələni qaldıra bilərik, lakin defakto mümkün deyil.

**- Niyə?**

- Çünki faktiki olaraq bu sənəd müharibənin qarşısını alır. Üçtərəfli bəyannamədən imtina etsək, əvvəlki vəziyyətə qayıda bilməyəcəyik. Artıq orada rus sülhməramlıları var. Deməli, daha ya savaş barədə düşünməməli, ya da oradakı rus hərbçiləri ilə üz-üzə gəlməliyik. Amma sənədin hansısa şərtləri müzakirə edilə bilər. Məsələn, Zəngəzur dəhlizi açılmırsa, biz də Laçın dəhlizini bağlamaq məsələsini gündəmə gətirməliyik.

**Kənan Novruzov**



## Ermənilər mütləq bizim vətəndaşlığımızı qəbul etməlidir

### Millət vəkili: "Qeyri-qanuni yaşayan hər kəsi torpaqlarımızdan "təmizləyəcəyik"

**Prezident İlham Əliyev "CNN Türk"ə müsahibəsi zamanı deyib ki, Xankəndidə və ətraf kəndlərdə yaşayan ermənilər də bizim cəmiyyətimizə mütləq inteqrə edilməlidir. Onlar üçün bu, daha böyük fürsətlər yaradacaq.**

"Bakıdakı erməni kilsəsinin təmir olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "O, şəhərin mərkəzində yerləşir və əgər oraya kimsə getsə görər ki, orada 5 minə yaxın erməni kitabı var. Amma bizim məscidlərimizə nə etdilər? Müqayisə üçün deyim ki, 60-dan çox məscidimizi yerlə bir etdilər" - deyə, dövlət başçısı əlavə edib.

**Millət vəkili Elman Məmmədov bu barədə "Şərq"ə danışıb:** "Dövlətin ərazisində daimi yaşamaq üçün mütləq vətəndaşlığı qəbul etməlisən. İndi ermənilərin iki yolu var. Ya digər milli azlıqlar kimi vətəndaşlığımızı qəbul edəcək və ölkəmizdə yaşayacaqlar, ya da torpaqlarımızdan çıxacaqlar. Və ya həbs olunacaqlar. Hər halda biz qeyri-qanuni yaşayan hər kəsi torpaqlarımızdan "təmizləyəcəyik".

**Kənan**

# Vəziyyət dəyişir

## Ermənistan proseslərin ciddiliyini anlamağa başlayıb

Avqustun 17-də Moskvada Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun iclası keçirilib. Tərəflər müəyyən fasilədən sonra üçtərəfli işçi qrupun işini bərpa ediblər. İclas zamanı Cənubi Qafqaz regionunda nəqliyyat kommunikasiyalarının bərpası perspektivləri nəzərdən keçirilib.

Bundan əlavə müşavirədə 2021-ci ilin yanvarın 11-də imzalanmış Bəyanat çərçivəsində işlərin bundan sonrakı gedişi müzakirə olunub. Xatırladaq ki, bu, may ayında sərhəddə başlanan qarşıdurmadan sonra keçirilən ilk görüşdür. İrəvan dövlət sərhədinin bərpasına etiraz edərək, işçi qrupunun fəaliyyətini birtərəfli dayandırmış və "sərhəd məsələsi həll olunmadan, bərpa etməyəcəyini" bildirmişdi. Seçkidən sonra işçi qrupunun bərpa edilməsi ilə bağlı müəyyən mesajlar verildi, nəhayət, avqustun 12-də Paşinyan razı olduqlarını açıqladı. Üçtərəfli razılaşmalarda kommunikasiyanın bərpası Moskva üçün xüsusilə prioritetdir. Bu baxımdan, ruslar yolların açılması istiqamətində səylə işləyir. Hərçənd, burada bir vacib detal var, kommunikasiyaların açılması üçün sərhədlərin delimitasiyası lazımdır. İşçi qrupunun fəaliyyətə başlaması sərhədin delimitasiyasının rəsmiləşməsi istiqamətində də proseslərin getdiyi, yaxud bununla bağlı konkret razılığın olduğu deməkdir.



**Qarabağ üzrə üçtərəfli işçi qrupun fəaliyyətinin bərpa olunması Azərbaycanın güclü mövqeyinin göstəricisidir**

**İşçi qrupun yenidən fəaliyyətə başlamasını "Şərq"ə analiz edən millət vəkili, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu deyib ki, üç ölkə nümayəndələrinin yenidən müzakirələrə başlaması Ermənistanın proseslərin ciddiliyini dərk etməyə başladığını göstərir.** Deputat vurğulayıb ki, İrəvan hökuməti nəhayət başa düşməlidir ki, 10 noyabr və 11 yanvar üçtərəfli bəyanatında əksini tapmış müddəalara qeyd-şərtsiz əməl etməkdən başqa çarə yoxdur: "Ermənistan tərəfi üç ölkənin baş nazirlərinin müavinlərindən ibarət işçi qrupunun fəaliyyətinə mane olurdu. Ermənistanın əsas məqsədi ondan ibarət idi ki, sərhədlərin delimitasiya və demarkasiya işlərinə əngəl olsun. İşçi qrupun yaradılmasının başlıca məqsədi regionda nəqliyyat infrastrukturunun yaradılmasına, digər iqtisadi layihələrin həyata keçirilməsinə nail olmaqdır. Həmçinin, atılacaq addımlarla bağlı ilkin təəssürat formalaşdırmaqdır. Daha sonra isə praktiki addımların atılması ilə bağlı təkliflər irəli sürməkdir. Hesab edirəm ki, indiki məqamda işçi qrupun fəaliyyətinin bərpa olunması Azərbaycanın güclü mövqeyinin göstəricisidir".

**Parlament üzvü xatırladıb ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov beynəlxalq yük daşıyıcılarına Cənubi Qafqazda yaranmış yeni imkanlardan bəhrələnməyi tövsiyə edib:** "Rusiyanın yeni imkanlardan daha geniş istifadə etməsiylə bağlı çağırışlar edilir. Yeni nəqliyyat imkanları yaradan ölkə isə Azərbaycandır. Rusiya Azərbaycanın birgə bəyannaməyə uyğun addımlar atdığını görür. Əksər hallarda birgə bəyannamələrin icrası ilə bağlı Moskva ilə Bakının mövqeləri üst-üstə düşür. Ermənistan isə şərtlərdən boyun qaçırmağa çalışır. Bütün bunlara baxmayaraq, İrəvanın başqa çıxış yolu yoxdur. Gec-tez regionda mühüm dəyişikliklər baş verəcək. İşçi qrupunun fəaliyyətə başlaması da proseslərin Azərbaycanın maraqlarına uyğun cərəyan etdiyinin göstəricisidir".

**İsmayıl Qocayev**

# Savaş bitməyib

## Hər an müharibə yenidən başlaya bilər



## Cəbhə xəttinə ən güclü bölmələr cəlb edilməlidir

Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan ordusunun mövqelərini fasilələrlə snayper tüfəngi, iriçaplı pulemyot və atıcı silahlardan atəşə tutub.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Qarşı tərəf cavab atəşilə susdurulub. Azərbaycan ordusunun şəxsi heyəti arasında itki yoxdur. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Demək olar, son bir aydır düşmən provokasiyaları davam edir. Ermənistan "ipə-sapa yatmır". Bu isə onun özünü daha çıxılmaz labirintə salır.

**Hərbi ekspert İbrahim Rüstəmli baş verənləri "Şərq"ə dəyərləndirib:** "Kim müharibənin bitdiyini düşünsə, o, uduzacaq. Münaqişə başa çatmayıb. Bunu təsdiqləyən kifayət qədər fakt var. Silahlar susmur, itkilərimiz olur. Təxribatların arxasında erməni lobbisi, Ermənistana yaxın qüvvələr dayanır. Rusiya, ABŞ və Fransa regionda sabitliyin yaranmasını istəmirlər. Düşmən özü isə ordusu haqqında o qədər eyforik mənzərə yaratmışdı, xalqı o qədər aldatmışdı ki, indi nə etdiyini bilmir. 44 günlük müharibə bütün erməni miflərini darmadağın etdi. İndi erməni cəmiyyətində ciddi post-dramatik sindrom var. Özlərini aparıcı qüvvə kimi təqdim edən siyasətçilər isə xalqı özünə gətirməyə çalışırlar".

İ.Rüstəmlinin fikrincə, Azərbaycan hər cür senariyə hazır olmalıdır: "Rusiyanın, Fransanın bəyanatları artıq siqnal kimi qəbul edilməlidir. Rusiyanın Müdafiə naziri Sergey Şoyqu bildirib ki, Ermənistan ordusunun müasirləşdirilməsinə kömək edəcək. Prezident İlham Əliyevin dediyi kimi, bu, kimə, nəyə lazımdır? Burada təkcə hərbi-siyasi yox, həm də psixoloji-mənəvi məqamlar var. Ermənistan məğlubiyyətlə barışmaq istəmir. Biz otuz il sülh olduğu kimi, yenə də sülhün tərəfdarıyıq. Prezident İlham Əliyev və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan Ermənistanı dəfələrlə regional əməkdaşlığa çağırıblar. Amma İrəvan bunu istəmir. Deməli, yenə də Ali Baş Komandanın sözləri ilə desək, biz təkcə XXI əsrin deyil, XXII əsrin də savaşına hazır olmalıyıq. Qayda sadədir: müharibə istəmirsənsə, müharibəyə hazır olmalısan".

**Ekspert silahların yenidən işə düşmə ehtimalını istisna etmir:** "Ordumuzun hazırlıq səviyyəsi daim artırılmalıdır. Cəbhə xəttinə - əgər atışmalar gedirsə, ora belə adlandırılmalıdır - ən güclü bölmələr cəlb edilməlidir. Düşmən Azərbaycanın gücünü görməlidir. Əks halda sakitləşməyəcək. Dediyim kimi, biz sülhün tərəfdarıyıq. Amma İrəvanın başa düşdüyü yeganə dil güc dilidir. Lokal toqquşmalar hər an başlaya bilər. Siyasi bəyanatlar verilməlidir ki, sabah "Dəmir yumruq" işə düşəndə kimsə bizi ittiham etməyə haqq tapmasın".

**Kənan Novruzov**



# Azərbaycan XİN Lavrova etirazını bildirməlidir

*"Rusiya Qarabağda ermənilərin yaşadığı əraziyə "öz əyaləti" kimi istədiyi qurumu dəvət edir"*

"Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Beynəlxalq Avtomobil Daşıyıcıları Birliyinə Qarabağda iş imkanlarını nəzərdən keçirməyi təklif etməsi, Kremlin yanlış siyasətidir. İlk növbədə Azərbaycan Qarabağa beynəlxalq təşkilatları dəvət edə bilər. Azərbaycanın razılığı olmadan Qarabağda Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında Rusiyanın hər hansı bir şirkəti dəvət etməsi Azərbaycanın suverenliyinə təhdiddir".

**Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.** O bildirib ki, Rusiya Qarabağda sülhməramlı missiya əvəzinə Qarabağda ermənilərin yaşadığı əraziyə "öz əyaləti" kimi istədiyi qurumu dəvət edir. Sergey Lavrovun bu qeydlərinə Azərbaycan XİN etiraz etməlidir: "Rusiya Azərbaycanla razılaşdırmadan və müzakirə etmədən Qarabağda istədiyi fəaliyyəti həyata keçirir. Bu, sonradan Qarabağda yaşayan ermənilərə Rusiyanın pasport verməsi ilə nəticələnə bilər. Ona görə də Azərbaycan Rusiya ilə Qarabağdakı bu kimi fəaliyyətə son verilməsini tələb etməlidir. Azərbaycanın razılığı olmadan hər bir beynəlxalq şirkətin buraya dəvət edilməsi qanunsuz hesab edilməlidir. Sergey Lavrovun bu dəvəti əsasən, Qarabağda erməniləri beynəlxalq müstəvidə bir subyekt kimi tanıtdırmaqdır. Moskvanın əsas siyasəti budur. Ümumiyyətlə, Rusiyaya Qarabağdan beynəlxalq müstəvidə danışmağa icazə verilməməlidir. S.Lavrov özünü Rusiyanın deyil, qondarma rejimin təmsilçisi kimi aparır".

**Aynurə Pənahqızı**

# Zəngəzur dəhlizi açılmalıdır

## Paşinyanın tərəddüdlərini Moskva çözə bilər

"Rusiya, Azərbaycan və Ermənistan baş nazir müavinlərindən ibarət üçtərəfli işçi qrupu avqustun 17-də Moskvada yenidən toplandı. Görüşdə tərəflər regionda nəqliyyat kommunikasiyalarının bərpasının perspektivlərini və Azərbaycan Prezidenti, Ermənistan Baş naziri və Rusiya Prezidentinin 2021-ci il yanvarın 11-də imzaladıqları bəyanatın yerinə yetirilməsi məsələlərini müzakirə etdilər.

Ermənistan bir müddət komissiyanın işinə qatılmaqdan imtina etdi. Ermənistanın birinci bəhanəsi o idi ki, parlament seçkiləri keçirildikdən və yeni hökumət formalaşandan sonra komissiyanın işinə qatıla bilərlər. Ermənistanın ikinci bəhanəsi sərhəddəki gərginliklə bağlı idi, yəni Azərbaycanla gərginlik olduğu müddətdə kommunikasiya xətlərinin açılmasına razılaşa bilməzlər".

**Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, bu bəhanələrə baxmayaraq Ermənistan hakimiyyəti yenidən masaya qayıtdı:** "Ancaq üçtərəfli işçi qrupun yenidən Moskvada toplanaraq kommunikasiya xətlərinin açılmasıyla bağlı müzakirələri davam etməsi hələ Ermənistan hakimiyyətinin məsələni uzatmayacağından xəbər vermir. Ermənistanın Baş naziri Nikol Paşinyan bir tərəfdən deyir ki, Azərbaycanla dəhlizin açılması zərurəti yarana bilər, o biri tərəfdən Zəngəzur koridorunun əleyhinə olduğunu vurğulayır. Paşinyan tərəddüd içərisindədir. O, bir tərəfdən koridor vasitəsilə bölgədə sülhün bərpası istiqamətində önəmli addımın atılacacağını anlayır, digər tərəfdən güzəştə gedən tərəf kimi görsənmək istəmir. Onun tərəddüdünü Moskva çözə bilər. Rusiya 11 yanvar bəyanatının əsas bəndini əlində rəhbər tutaraq koridorun açılmasını təmin



edə bilər. Ancaq problem ondadır ki, Rusiyanın özü də 10 noyabr və 11 yanvar bəyanatlarına sadiq deyil. Əks halda Laçın dəhlizindən silah, hərbi texnika və muzdlu hərbçilər Qarabağa keçməməli, Qarabağda qanunsuz postlar qurulmamalı və erməni separatçıları tərksilah olunmalıydılar. Bunların heç biri baş vermir".

**E.Şahinoğlu əlavə edib ki, Rusiyanın bölgədə sülh quruculuğu ilə məşğul olmadığını Prezident İlham Əliyev də son müsahibəsində etiraf etdi:** "Ona görə də Moskvanın kommunikasiya xətlərinin açılması məsələsində də ikili oynadığına dair şübhələr var. Kreml kommunikasiya xətlərinin açılmasıyla Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələrinin bir-birləriylə sıx bağlanacaqlarından ehtiyat etməyə başlayıb. Halbuki, Zəngəzur dəhlizindən Rusiyanın özü də bəhrələnə bilər.

Moskvada anlamalıdırlar ki, Abxaziya, Cənubi Osetiya və ya Donbas separatçılarından fərqli olaraq Qarabağdakı erməni separatçıları mühasirədədirlər və Azərbaycan ordusu bu mühasirəni daraltmaq istiqamətində fəaliyyətini davam etdirəcək. Ona görə də nə qədər ki, növbəti müharibə başlamayıb, Moskvanın 10 noyabr və 11 yanvar bəyanatlarının yerinə yetirilməsini təmin etməsinə ehtiyac var. Yeni müharibə Ermənistan kimi Rusiyanın da maraqlarına cavab vermir. Biz isə istənilən varianta hazırıq. Növbəti mərhələdə Ermənistanın Azərbaycanla sülh sazişi və sərhədlərin müəyyənləşməsi məqsədilə danışıqlara başlaması zərurəti də yaranacaq. Biz istədiyimiz nəticələri əldə etmək üçün təzyiqlərimizi davam etdirməliyik".

**Aynurə Pənahqızı**

# Ermənistanda siyasi böhran dərinləşəcək

## Türkiyəli jurnalist: "İrəvan sülh müqaviləsini imzalayarsa, Türkiyə sərhəd qapılarını açacaq"



Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə "CNN Türk" kanalına verdiyi müsahibə zamanı iki qardaş ölkənin əməkdaşlığından danışdı. Rəsmi Ankaranın müharibə dövründə bizə verdiyi dəstək xüsusi vurğulandı. Bildirildi ki, qardaş dəstəyi olmasa idi, işimiz çətinləşərdi. Dövlət başçısının həmin bəyanatları informasiya cəbhəsində atılan çox mühüm addımlar idi. İndi lazımi tərəflər mesajlardan dərs çıxarmalıdırlar.

Prezident müharibə dövründə olduğu kimi, yenə də informasiya müharibəsinə xüsusi həssaslıqla yanaşır. Çünki uğurlu diplomatik gedişləri ilə dünyanı özünə heyran qoyan siyasətçi xəbərin dünya siyasətinə təsirini çoxlarından yaxşı bilir.

**"Şərq" olaraq türkiyəli jurnalist İhsan Aktaşla son proseslər və baş verənlərin fonunda informasiya müharibəsini müzakirə etdik:**

**- Sizcə, Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması nə qədər realdır?**

- Məlum olduğu kimi, müharibələr sərhədlərin müəyyənləşməsi üçün aparılır. Amma dünyada bütün ölkələri əhatə edəcək ədaləti təmin edəcək beynəlxalq bir hüquq yoxdu. Sovet rejimi dağılanda Azərbaycan dövlət sistemini tam qurmağa imkan tapmadan işğalla üz-üzə qaldı. Nə BMT, nə digər beynəlxalq qurumlar bu haqsız işğalın qarşısını almaqdan ötrü bir şey etmədilər. Paşinyanın erkən parlament seçkilərində qalib gəlməsi mənə görə bir ümiddir. Ermənistan Azərbaycanla müqavilə imzalayarsa, bəlkə, Türkiyə sərhəd qapısını açır və düşmən iqtisadi cəhətdən bir az nəfəs alar. Bu, hər kəs üçün daha faydalıdır.

**- Bəs İrəvanın təxribatları nə ilə nəticələnəcək?**

- Ermənistan müharibədən sonra ciddi və gözlənilməz zərbə aldı. Çünki ötən zaman kəsiyində Azərbaycanın bu qədər gücləndiyinin və komplektləşdirilmiş orduya sahib olduğunun fərqində deyildi. Beləliklə, Ermənistandakı siyasi böhran dərinləşməkdədir. Düşmən ölkə iqtisadi cəhətdən çətin vəziyyətə düşüb.

**- Belə vəziyyətlərdə informasiya müharibəsinin əhəmiyyəti nədən ibarətdir?**

- Savaş həm də psixoloji mübarizədir. Psixologiyanı düzgün yönləndirən tərəf qalib gəlir. Bu gün informasiya savaşı çox mühümdür. Bu mənada Prezident İlham Əliyevin açıqlamaları, o cümlədən BBC-yə verdiyi müsahibələr çox mühüm idi. Onu da deyim ki, Türkiyə mediası, xüsusilə Anadolu agentliyi də sınaqdan üzüağ çıxdı.

**- Bəs sosial media məhdudlaşdırılmalıdır?**

- Bu məsələyə Qərbdə və Şərqdə münasibət fərqlidir. Qərb adını "hüququn tələbi", Şərq "məhdudlaşma" qoyur. Bir ölkənin təhlükəsizliyi ilə vətəndaşın azadlığı eyni dərəcədə əhəmiyyətlidir. Dövlətin vəzifəsi isə tarazlığı qorumaqdır.

**- Dezinformasiyaların qarşısı necə alınmalıdır?**

- İctimaiyyəti doğru bilgiləndirmək şərtdir. Yadınızdadırsa, ABŞ-da prezident seçkiləri zamanı Donald Trampın sosial media hesabları bağlanmışdı. Yəni məsələ kifayət qədər ciddidir. Burada beynəlxalq güclər mühüm rol oynayırlar. Hər bir dövlətin milli təhlükəsizliyinin əsas komponentlərindən biri isə məhz informasiya təhlükəsizliyi ilə bağlıdır.

**- Azərbaycan-Türkiyə ortaq media platformasının yaradılmasını necə qiymətləndirirsiniz?**

- Bildiyiniz kimi, müharibələr müttəfiqlərlə qazanılır. Media ilə bağlı da vəziyyət eynidir. Sözügedən məsələ Qarabağ müharibəsindəki müttəfiqliyin növbəti təzahürüdür və çox əhəmiyyətlidir. Türkiyənin TRT kanalı və Anadolu agentliyi regional informasiya mənbəyidir. Həmin KİV nümunələri informasiyaları ingilis, ərəb, alman və rus olmaqla dörd əcnəbi dildə çatdırır. Fikrimcə, iki qardaş ölkənin ortaq təşəbbüsü digər türkdilli ölkələrə də ayaq aça bilər.

**Kənan Novruzov**




# Paşinyandan açıqlama gəldi

## "Türkiyə ilə əlaqələri normallaşdırmağa hazırıq"

**Ermənistan Baş naziri Nikol Paşinyan dünən Türkiyə ilə bağlı açıqlama verib. Paşinyan "Türkiyə ilə əlaqələri normallaşdırmağa hazırıq" deyə bildirib.**

Baş nazir ölkə televiziyasının canlı yayımda bunları deyib:

"Biz dünən də əlaqələrimizi düzəltməyə hazır idik, bu gün də buna hazırıq. Ankara və İrəvan arasında qarşılıqlı güvən atmosferi yarada bilmək üçün əlaqələri qurmağa hazırıq".

# Yoluxma sayı 4 mini keçdi

## 20 nəfər ölüb, 968 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 129 yeni yoluxma faktı qeydə alınıb, 968 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 20 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 377 304 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 341 142 nəfər müalicə olunaraq sağalıb, 5 208 nəfər vəfat edib, aktiv xəstə sayı 30 954 nəfərdir.

# Moskvada dövlət başçılarının üçtərəfli görüşü gözlənilir

## Ekspertlər iddia edir ki, Kreml Ermənistana təzyiq etməyə başlayacaq

Rusiya, Azərbaycan və Ermənistan arasında razılaşmaları İrəvan yerinə yetirmir, amma yaxın vaxtlarda yerinə yetirməyə məcbur olacaq. Bu barədə tanınmış rusiyalı politoloq Sergey Markov bildirib. Ekspertin sözlərinə görə, müəyyən müddətdən sonra saatların uyğunlaşdırılması və konkret məsələlərin həlli üçün Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü keçiriləcək:

"Şübhəsiz ki, belə bir görüş baş tutacaq. Proses daha da irəliləməlidir. İrəliləyişdə gecikmələr, ilk növbədə, Ermənistanın hazır olmaması ilə bağlıdır. Lakin Moskva prosesə kifayət qədər nikbin baxır. Mənimlə ünsiyyətdə olan Rusiya tərəfini danışıqlar prosesində təmsil edən üzvlərin sözlərinə əsasən, Kreml Ermənistana təzyiq etməyə başlayacaq. Hazırda ermənilərə vaxt lazımdır ki, olanları həzm etsinlər. Vladimir Putin üçün bu, çox mühüm məsələdir". Markovun sözlərinə görə, Ermənistanı bir az sıxmaq lazımdır ki, bu da öz növbəsində nəqliyyat-iqtisadi əlaqələrin bərpasına gətirib çıxarsın. Xatırladaq ki, son günlər bir neçə rusiyalı ekspert Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının Moskvada görüşəcəyindən, müzakirələrin aktiv fazaya keçəcəyindən söz açırlar. Xüsusən vurğulanır ki, ölkə başçısı İlham Əliyevin məlum xəbərdarlıqlarından sonra prosesdə canlanma qaçılmazdır.

**Çünki savaşın yenidən başlaması 10 noyabr sazişinin qüvvədən düşməsinə və Rusiya sülhməramlılarının Qarabağdan çıxmasına şərait yaradacaq**



**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında son proseslərdən sonra Azərbaycan, Rusiya və Ermənistan rəhbərlikləri arasında növbəti görüşə ehtiyac olduğunu düşünür. Onun sözlərinə görə, rəsmi Bakı Ermənistanın 10 noyabr bəyanatına əməl etməməsindən və bölgədə gərginliyi artırmasından narahatdır:** "İrəvan üzərinə götürdüyü şərtlərə əməl etməkdən boyun qaçırır. Ona görə də mövcud duruma görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür. Ölkə başçısı İlham Əliyevin son mesajlarından aydın oldu ki, Azərbaycan Ermənistanın nazı ilə oynamaq fikrindən uzaqdır. Dövlət başçısı İrəvanın sahibinə, birbaşa Rusiyaya müraciət etdi. Hazırda torpaqlarımızda Rusiyanın hərbi kontingenti var və sülhməramlı missiyası ilə çıxış edirlər. O baxımdan gözlənilən üçtərəfli görüş ilk növbədə rəsmi Bakıya lazımdır və ciddi nəticələr verə bilər. Azərbaycan tərəfi bəyan edir ki, Ermənistanın pozuculuq siyasəti, anlaşmanın şərtlərinə əməl etməkdən imtina etməsi Rusiyanın da maraqlarına tamamilə ziddir. Əgər vəziyyət müharibə həddinə çatacaqsa, Azərbaycan ordusu növbəti dəfə məğlub Ermənistanı diz çökdürəcək. Moskva növbəti müharibənin fəsadları barədə ciddi düşünməlidir. Savaşın yenidən başlaması 10 noyabr sazişinin qüvvədən düşməsinə və Rusiya sülhməramlılarının Qarabağdan çıxmasına şərait yaradacaq. Çox güman ki, rəsmi Bakı bunu Kremlin ünvanına çatdırıb. Əslində dəfələrlə Rusiyaya mesaj verilib ki, əgər bölgədə sabitliyi qorumaq iqtidarında deyilsizsə, sülhməramlı kontingentin burada görə biləcəyi iş yoxdur. İstənilən halda baş tutacaq görüşdə mövqelər yenidən diqqətə çatdırılacaq".

**İsmayıl Qocayev**



# Ürək xəstələri mütləq vaksin olunmalıdır

## Belə xəstələr koronavirusa yoluxanda xəstəliyi 5 dəfə ağır keçirir

**Statistikaya görə, dünyada ürək xəstəliyindən ölüm halları ilk sırada qərarlaşıb.**

**Bunu Səhiyyə Nazirliyinin "İnstagram" səhifəsindəki canlı yayımda Nazirliyin mütəxəssisi, dosent, invaziv-kardioloq Qalib İmanov bildirib. Onun sözlərinə görə, COVİD-19 virusu da infarkt və ürək ritminin pozulmasına səbəb olur:**

"Koronavirusa yoluxma zamanı süni tənəffüs aparatına qoşulma, hətta ölüm riski ən çox ürək-damarla bağlı ağırlaşmada olur. Bu hətta ürək xəstəliyi olmayanlarda belə ola bilər. Ona görə də xüsusilə ürək xəstələri virusun ilk simptomlarını hiss etdikdə kardioloqla məsləhət etməlidir. Koronavirus isə bu riski daha da artırır. Bunun üçün vaksin olunmaq, maska taxmaq, məsafə saxlamaq lazımdır. Ürək-damar xəstələri mütləq şəkildə vaksin olunsunlar, vurdurmamaq üçün heç bir bəhanə axtarmasınlar. Vaksinə də dərman kimi baxsaq, yan təsirləri var, amma bunun yan təsirləri COVİD-in yaradacağı təsirlərdən qat-qat azdır. Açıq ürək əməliyyatı edənlər, üreyinə stend qoyulanlar, təzyiq xəstələri, ürəklə bağlı istənilən xəstəliyi olanlar mütləq vaksin olunmalıdır. Ağır ürək çatışmazlığı olan xəstələrin öz istifadə etdikləri dərman da çoxdur, virusa yoluxanda da çoxlu sayda dərman olur, bu isə riski çox artırır. Ona görə də koronavirusa yoluxma baxımından ən çox ağırlaşma ağır ürək çatışmazlığı olanlarda olur".

Onun sözlərinə görə, bir otaqda iki nəfər varsa, mütləq şəkildə maska taxılmalıdır: "Maska taxılmadığı müddətdə 15 dəqiqə ərzində virusa yoluxdurma 100 faizdir, hər iki şəxs maska taxdığı halda isə virusa yoluxmaqdan 95 faiz qoruya bilir. Ürək xəstələrinin koronavirusa yoluxandan sonra xəstəliyi digər şəxslərlə müqayisədə 5 qat daha ağır keçirmək riski var. Dünyadakı statistikaya görə, bu cür xəstələr daha ağır keçirir, daha çox reanimasiyaya düşür. Xəstəliyin ağır keçməsinə səbəblərdən biri də müalicədə istifadə olunan dərmanların yan təsiridir. Ürək xəstələrində virusa yoluxma ilə bağlı simptom olan kimi həkimlə məsləhət etməsini tövsiyə edirik, ilkin etapda həkimə xəbər vermək çox vacibdir. Ürək xəstəliyi olanlarda koronavirusa yoluxma zamanı xəstəlik daha da ağırlaşır".

**Həkim bildirib ki, hətta ürək xəstəliyi olmayanlarda belə virusa yoluxduqda ən çox artemiyaların yaranması, ürək ritminin pozulması, ürək əzələsinin iltihablaşması, kəskin infarkt riski olur:** "Ürək çatışmazlığı varsa, üzərinə koronavirus gəldikdə tromb riski yaranır və infarkt riski daha da artır. Ürək-damar xəstələri yüksək risk qrupunda olduğu üçün daha çox vaksin olunmasını istəyirik. Bizə ən çox müraciətlərin sayı da vaksin vurdurub-vurdurmamaqla bağlıdır. Birmənalı olaraq bu cür xəstələr gecikdirmədən vaksin vurdurmalıdır".

**Aynurə Pənahqızı**

# Həkim dənizdə ölüm təhlükəsi ilə üzləşən şəxsi xilas edib



**Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkimi Aygün İsmizadənin sayıqlığı nəticəsində gənc ölümdən xilas edilib.**

Səhiyyə Nazirliyindən APA-ya verilən məlumata görə, hadisə Xaçmaz rayonunda baş verib. İstirahət mərkəzində bir nəfər dənizdə olduğu zaman ürək tutması ilə huşsuz vəziyyətə düşüb və yaxında olan vətəndaşların yardımı nəticəsində sahilə çıxarılıb. Orada istirahətdə olan həkim Aygün İsmiyeva dərhal həmin şəxsə ilkin yardım olaraq ürək masajı etməyə başlayıb. 107 kq çəkidə olan vətəndaşı 25 dəqiqə davam edən ürək masajından sonra həyata qaytarmaq mümkün olub.

**Aygün İsmiyeva bildirib ki, bu, artıq peşə vərdişidir:** "Hər zaman və hər yerdə hadisələrə dərhal müdaxilə etməyi özümüzə borc bilirik. Oğlum dənizdə bir nəfərin öldüyünü dediyi anda sahilə qaçdım. Vətəndaşın ürək dayanmasından huşsuz vəziyyətdə olduğunu gördüm və dərhal ürək masajı etməyə başladım. Çox sevinirəm ki, yardımım nəticəsində həmin adamın həyatını xilas etmək mümkün oldu. Səhiyyə Nazirliyinin həkimi olaraq vətəndaşlarımıza hər zaman xidmət etməyə hazırıq".

*Səhiyyə Nazirliyi göstərdiyi ilkin tibb yardım nəticəsində vətəndaşı yenidən həyata qaytaran qəhrəman həkimə təşəkkürünü bildirib.*



# Goranboyda mikroavtobus aşıb

## Ölənlərin sayı 4 nəfərə çatıb

**Goranboyda ölümlə nəticələnən yol qəzası baş verib.**

Hadisə Bakı-Qazax magistral yolunun rayonun ərazisindən keçən hissəsində qeydə alınıb. Hərəkətdə olan "Ford" markalı mikroavtobusun aşması nəticəsində bir nəfərin öldüyü, 10-a yaxın şəxsin xəsarət aldığı bildirilir.

Yaralanan sərnişinlər 1978-ci il təvəllüdlü Mahmudova Təzəgül Xaliqverdi qızı, 1999-cu il təvəllüdlü Həsənov Mehman Telman oğlu, 1966-cı il təvəllüdlü Həsənova Rəna Kamal qızı, 1972-ci il təvəllüdlü Əsgərov Elşad Abdulla oğlu, 1997-ci il təvəllüdlü Şahverdiyev Sovet Lətif oğlu, 2004-cü il təvəllüdlü Mahmudova Aytən Eyvaz qızı, 1988-ci il təvəllüdlü Əkbərova Aytən Hüseyn qızı, 1976-cı il təvəllüdlü Ağayeva Gülnarə Çərkəz qızı və 1999-cu il təvəllüdlü Bəşirova Rəna Camal qızıdır.

Hadisə yerinə təcili tibbi yardım briqadaları cəlb olunub.

Ən son məlumata görə, ölənlərin sayı 4 nəfərə çatıb.

# Avtoxuliqanların videoları çəkilib ictimailəşdiriləcək

## "Axır ki, başa düşdülər ki, küçələrdə adam güdüb cərimə yazmaqla problem həll olunmayacaq"



**Baş Dövlət Yol Polisi İdarəsi bəzi sürücülərə qarşı təkcə inzibati qaydada deyil, ictimai qınaq metodlarından istifadə etməklə mübarizə aparmağın daha səmərəli olacağına inanır. Bəs bu metod nə dərəcədə effektli olacaq?**

*"Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə açıqlamasında bildirib ki, bunun effektliyi ictimaiyyətdən asılıdır. O qeyd edib ki, əgər insanlarımız belələrinə qarşı tənqidi nümayiş sərgiləsə, o zaman bu şəxslər əməllərindən əl çəkəcəklər:* "Axır ki, başa düşdülər ki, küçələrdə adam güdüb cərimə yazmaqla problem həll olunmayacaq. O qədər pullu adamlar var ki, hər gün qaydanı pozub ödəməyə hazırdılar. 50-100 manat onlar üçün problem deyil, vaxtları qızıldır, ona görə də yüksək sürətlə gedirlər, qırmızıda keçirlər və s. Hesab edirəm ki, DYP belə halların video və fotolarını ictimailəşdirməli, həmin şəxslər mediada, sosial şəbəkələrdə rüsvay edilməlidir. Bu, daha çox effekt verər, nəinki 50 manata cərimə etmək. Böyük qayda pozuntusu edən vəzifəli şəxslərə, imkanlı biznesmenlərə heç nə edə bilmirlər, amma ucuz maşın sürən sadə vətəndaş bilmədən kiçik bir qayda pozuntusu edərkən başının üstünü kəsib cərimə yazırlar. Bu halda problem həll edilə bilməz.

Vətəndaşlar belə qudurğan şəxslərin törətdiklərini video və fotonu çəkib ictimailəşdirməlidir. Bizdə ictimai qınaq zəifdir, amma bunu gücləndirməliyik, özü də təkcə bunda yox, bütün sahələrdə. Vəzifəli və ya pullu şəxsə yaltaqlanmaqla heç nə dəyişən, düzələn deyil. Bunu anlamalıyıq. Yalnız bir məsələdə DYP sərt davranmalıdır. Qəsdən və dəfələrlə qaydaları kobud pozub ağır qəza törədənlərə, sərxoş halda maşın sürənlərə güzəşt olmamalıdır. Avtoşluq edən şəxslərin sürücülük hüququ azı 1 il məhdudlaşdırılmalı, 3-cü belə halda maşın müsadirə edilməli və ya nömrəsi alınaraq qeydiyyatdan çıxarılmalıdır ki, ondan heç kim istifadə edə bilməsin. Bundan sonra avtoşluq problem həll olacaq".

***"O qədər pullu adamlar var ki, hər gün qaydanı pozub ödəməyə hazırdılar. 50-100 manat onlar üçün problem deyil, vaxtları qızıldır, ona görə də yüksək sürətlə gedirlər, qırmızıda keçirlər"***

**Aynurə Pənahqızı**

# Paşinyan hələlik papağını itirib



*Bir az da belə davam etsə, başını da itirəcək*

Politoloqlardan biri ilə danışırdım. Söhbət zamanı dedi ki, Ermənistan bundan sonra papağını qabağına qoyub düşünməlidir. Eyni anda ikimiz də güldük. Ən çox da "papaq" sözünə. Ermənistan hara, papaq hara...

Məlum olduğu kimi, rəsmi İrəvan yenə öz ampluasındadır. Həmişəkitək dikbaşlıq edir, "cığallığa" can atır, oyunun qaydalarını pozmağa çalışır. Lakin oyunu artıq güc, yeni Azərbaycan diktə edir. Ermənistanın isə boyun əyməkdən başqa alternativi yoxdur. Boyun əyməsə, özü əziləcək, hətta əzik-əzik olacaq.

Prezident, Ali Baş Komandan İlham Əliyevin "CNN Türk" kanalına müsahibəsi, Kəlbəcər və Laçına səfəri zamanı verdiyi mesajlar konkretdir: üçtərəfli razılaşmaların şərtləri yerinə yetiriləcək, o cümlədən Zəngəzur dəhlizi açılacaq. İrəvan bunu istəsə də, istəməsə də...Əlbəttə, Paşinyan şəxsən, bəlkə də bunu arzulayır. Çünki siyasi xadim kimi getdikcə imicinin itirildiyinin fərqindədir. Amma erməni xisləti loyal mövqe sərgiləməyə imkan vermir. İrəvan "suya düşən saman çöpündən yapışar" misalı əl-ayaq öpür - gah Rusiyanın, gah Fransanın, gah da ABŞ-ın... Beləliklə, həm özünün kloundan fərqi olmur, həm də xalqını görməzdən gəlir, vətəndaşlarını öz ambisiyalarına qurban edir. Niyə? Ona görə ki, sələflərində olmayan onda da yoxdur - papaq, yəni qeyrət.

Papağa rus dilində "şapka" deyirlər. Adətən çalğıçılara verilən nəmər belə adlanır. Kimsəyə sirr deyil ki, indiki məqamda İrəvanı silahlandıran Moskvadır. Yeri gəlmişkən, dövlət başçısı "CNN Türk"ə müsahibəsində bu məsələyə də toxunmuş, Kremlə iradını bildirmiş, Rusiyanın bizim qonşumuz, Ermənistanın isə strateji müttəfiqi olduğunu açıq söyləmişdi. Deməli, İrəvana "musiqini sifariş verən də" Moskvadır. Özü kənarda qalır, mümkün qədər "süddən çıxmış ağ qaşıq" kimi görünməyə çalışır, amma əslində "saman altından su yeridir". Əlbəttə, rəsmi İrəvan bunu yaxşı başa düşür, "əl meymunu" olduğunu anlayır. Ancaq yenə də papaqsızlıq özünü göstərir...

Paşinyan papağını müharibədə o tərəf, bu tərəfə - gah şimala, gah da Qərbə sarı qaçanda yox, daha əvvəldən itirmişdi. "Qarabağ Ermənistandır, nöqtə" bəyanatı göstərmişdi ki, taxmaq istədiyi papaq onun başına uyğun deyil. Nikol hələlik papağını itirib, bir az da belə davam etsə, başını itirəcək...

Paytaxtın mərkəzində erməni "hərbçilərinin" İkinci Qarabağ müharibəsindəki boş qalmış papaqları nümayiş olunur. Ermənistan Baş nazirinin isə artıq başı boş qalıb. Bu, bir siyasətçi üçün sadəcə faciədir..

... Həmin politoloqla söhbətimiz maraqlı alındı. Müsahibənin sonunda təxmini belə bir fikir səsləndirdi: "Düşmən danışıqlar masasına gəlməsə, işi lap çətin alacaq". Papağını itirən siyasətçi üçün çətinliyin növbəti mərhələsini mən təsəvvür edə bilmirəm. Həm də islanmışın yağışdan nə qorxusu?..

**Kənan Novruzov**



## Dünya ondan danışır!

Taliban spikerinə sual verən qadın tarixə düşdü

**O ən ön sırada otururdu. Qırmızı bir paltar geymiş, qara şarfla saçlarını örtmüşdü, ancaq sarı saçları yenə də görünürdü. Söz aldı və dünyanın ödünü ağzına gətirən Taliban qarşısında sual soruşan ilk adam olaraq tarixə düşdü. İndi dünya ondan və cəsarətindən danışır.**

Talibanın bu həftəki ilk rəsmi mətbuat konfransında yalnız bir qadın jurnalist vardı və ondan Əfqanıstanın paytaxtını ələ keçərən əli silahlı kişilərdən ibarət olan qrupa cəsur sualı ilə dünyanı şok etdi.

Charlotte Bellis 2019-cu ildən bəri Əfqanıstanda, qismən Qətər hökuməti tərəfindən maliyələşən müstəqil xəbər quruluşu olan Əl- Cəzirə üçün çalışır.

Yeni Zelandiyalı cəsur jurnalist, daha əvvəl heç bir zaman kameraların qarşısına çıxmayan Taliban spikeri Zabibullah Mücahidə dəhşətə düşmüş minlərlə əfqan qadının haqqlarına hörmət göstərib göstərməyəcəklərini soruşdu.

Bellis, "Sizinlə qadın haqqları və qız uşaq haqqları, qadınların işinə icazə verilib, verilməyəcəyi və qızların məktəbə gedib, getməyəcəyi haqqında danışmaq istəyirəm" ifadələrini istifadə edib.

Bellis mətbuat konfransında ayrıca, "Qadınlara və qız uşaqlarına haqqlarının qorunacağına dair nə kimi zəmanətlər verə bilərsiniz?" sualını yönəltdi.

Taliban spikeri Zabibullah Mücahid jurnalistlərə "İslam Əmrliyinin şəriət qanunlarına uyğun gəldikləri müddətcə "qadınlara haqqlarını verəcəyinə dair zəmanət verdi".

"Qadınlara bütün haqqları veriləcək. İstər işdə ,istər digər fəaliyyətlərdə olsun, çünki qadınlar cəmiyyətin əhəmiyyətli bir parçasıdır" deyə sözlərinə əlavə edib.

## Silahları təhvil verin!

"Taliban" hökuməti yerli əhaliyə çağırış edib



**Əfqanıstandakı "Taliban" hökuməti yerli sakinləri silahlarını təhvil verməyə çağırıb.**

Bu barədə "Şərq" "RİA Novosti"yə istinadən xəbər verir.

Bildirilir ki, ölkədə yaxın zamanda yeni idarəetmə forması yaradılacaq. "Taliban" keçid hökumətinə razı deyil.

**Kənan**

## Əlverişsiz hava, pilot səhvi...

Vertolyotun qəzaya uğradığı yerdə axtarış işləri başa çatıb



**Kamçatkada Mİ-8 vertolyotunun qəzaya uğradığı yerdə axtarış işləri başa çatıb.**

Bu barədə "Şərq" "RİA Novosti"yə istinadən xəbər verir. Bildirilir ki, qəza avqustun 12-də olmuşdu. Göyərtədəki 16 nəfərdən səkkizi sağ qalıb. Onlardan ikisi reanimasiyadadır. Yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması və hava nəqliyyatının istismarı ilə bağlı cinayət işi başlanıb. Fəlakətin mümkün səbəbləri arasında əlverişsiz hava şəraiti, pilot səhvləri və texniki nasazlıqlar göstərilir.

**Kənan**

# Sayıqlamasına ermənilər özləri də inanmır

*Arutyunyanı sosial şəbəkələrdə linç edirlər*



"Araik Arutyunyan "müşavirə" keçirir, Xankəndi ətrafındakı ərazilərə səfərə çıxır və "Artsax"da yaşamaq əzmindən danışır". Bunu "Cümhuriyyət" qəzetinin baş redaktoru, siyasi şərhçi Rafail Becanov deyib. Baş redaktor qeyd edib ki, Araik kimilər başa düşmür ki, artıq onların təsəvvüründə olan, yalandan özləri üçün mifə çevirdikləri "Artsax" yoxdur və heç zaman da olmayacaq:

"Azərbaycan ordusu elə bir performans göstərib ki, bundan sonra 100 il də keçsə, Ermənistan özünə gəlməyəcək. Havadarlarının dəstəyi, müttəfiqlərinin təchizatı olsa belə yenə heç nə dəyişməyəcək. Fransanın gücü 44 günlük müharibə dövründə özünü göstərdi. Makron Paşinyan və Ermənistan qarşısındakı öhdəliyinə, verdiyi sözə baxmayaraq, boş danışıqdan o yana gedə bilmədi. Rusiya isə Lavrovun timsalında, Jirinovskinin təlxəkliyi fonunda nə qədər çalışsa da, Azərbaycan-Türkiyə müttəfiqliyi qarşısında dayana bilmədi. Lavrovun Beynəlxalq Avtomobil Daşıyıcıları Birliyinə Qarabağda iş imkanlarını nəzərdən keçirmək kimi təklifləri də heçdir. Reallıq gücü yoxdur, sadəcə, ermənilərə jestdir, blefdir. Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında olan ərazilərə hər hansı bir şirkəti dəvət etməsinin hüquqi əsası yoxdur. Heç bir beynəlxalq şirkət də bunu qəbul etməyəcək. Bu hərəkətlər, təkliflər erməniləri yetim uşaq kimi sevindirmək niyyəti güdür".

**R.Becanova görə, Arutyunyan belə xəbərlərin, sözlərin təsirindən sayıqlayır:** "Amma elə ermənilərin öz içindən də onun sayıqlamalarına cavablar verilir. Ermənilər özləri bu sayıqlamalardan yorulub "insanlara həqiqəti söyləyin", "o torpaqlar öz sahiblərinə qayıtdı", "boşuna övladlarımızı öldürməyin" yazırlar. Arutyunyanı sosial şəbəkələrdə linç edirlər. Linç edirlər, sayıqlamasın və həqiqəti dərk etsin ki, Qarabağ Azərbaycandır!. Şuşa Bəyannaməsi Ermənistanı da, onun müttəfiqlərini də ömürlük bloklayıb".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**




# Erməni cəmiyyəti daha savaş istəmir

*Ölkənin əksər əhalisi Azərbaycanla qonşuluq münasibətlərində yaşamağa hazırdır*

Ötən il noyabr ayının 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında birgə hərbi əməliyyatların dayandırılması və sülh prosesinin təmin olunması, gücləndirilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutan Bəyanat imzalanıb. Bu Bəyanatla Ermənistan kapitulyasiya etdi, eyni zamanda, sülhyaratma missiyası ilə bağlı Rusiya da müəyyən öhdəliklər götürdü. Lakin bu gün Azərbaycan üzərinə düşən vəzifələri yerinə yetirdiyi halda Ermənistan havadarlarına güvənməklə məsuliyyətini tam yerinə yetirmir.

Ermənistan həm 10 noyabr, həm də 11 yanvar bəyanatlarının maddələrinə sadiqlik nümayiş etdirmir, özünü revanşist tərəf kimi aparır. O baxımdan Prezident İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi Ermənistana və havadarlarına ciddi xəbərdarlıq idi. 44 günlük Vətən müharibəsindən sonra isə revanşizm niyyətləri 60-dan artıq erməni terrorçusunun əsir götürülməsi ilə başa çatdı. Yəni Ermənistan anlamalıdır ki, Azərbaycan hər nə qədər sülh tərəfdarı olsa da, müharibəyə də, təxribatların qarşısını almağa da hazırdır. Prezidentin müsahibə zamanı Ermənistanın təxribat xarakterli addımlarını və Qarabağda baş verən prosesləri diqqətə çatdırması da göstərdi ki, Azərbaycanın bölgəyə nəzarəti yüksək səviyyədədir. Azərbaycan bütün keçid və ərazilərə nəzarət edir. Həm Ermənistanın, həm Rusiya sülhməramlılarının, həm də İrandan gələn maşınların hərəkətlərini izləyir. Ona görə də Ermənistan təxribatlar deyil, Azərbaycanın təklif etdiyi sülh müqaviləsi haqqında düşünməlidir. Prezident bir daha Azərbaycanın sülh, əməkdaşlıq və tərəfdaşlıq mövqeyində olduğunu nümayiş etdirdi. Əslində, Azərbaycan qalib dövlət olaraq Ermənistanı sülhə məcbur etmək üçün fərqli yollara da əl ata bilər. Amma Azərbaycan səbr edir, praqmatik dövlət olaraq addımlar atır, düşmənin, havadarlarının təxribatlarına baxmayaraq, bütün dünyaya sülh, əməkdaşlıq niyyətini göstərir. Əlbəttə ki, Ermənistan da bu fürsətdən istifadə etməlidir. Çünki Azərbaycanın sülh təklifi daimi, əbədi olaraq masa üzərində qalmayacaq. Ermənistan və havadarları da bilir ki, Qarabağla bağlı məsələnin "hərbi həlli yoxdur" tezisi işə yaramır. Azərbaycan artıq bunu sübut edib. Ölkə başçısı İrəvanın silahlandırılması ilə bağlı kifayət qədər açıq danışaraq qeyd etdi ki, mövcud durumda Ermənistanı silahlandırmaq heç bir məntiqə sığmır: "Biz hələ ki bunu görmürük, müşahidə etmirik. Amma Rusiya tərəfindən bəzi açıqlamalar oldu. Bir neçə gün bundan əvvəl Rusiya müdafiə naziri Ermənistan müdafiə naziri ilə görüş zamanı söyləmişdi ki, Ermənistana Rusiya silahlarının göndərilməsi prosesi başlamışdır. Bu, çox narahatedici bir məsələdir". Dövlət başçısı Ermənistan müdafiə nazirinin çox məsuliyyətsiz açıqlamalar verməsinə də diqqət çəkdi və xəbərdarlıq etdi: "Yəni görünür, İkinci Qarabağ savaşı hələ ki hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsini yenidən verməyə hazırıq. Ona görə biz ümid edirik ki, Rusiya Ermənistanı silahlandırmayacaq. Çünki buna ehtiyac yoxdur". Bununla da erməni revanşistlərə ağıllarını başlarına yığmağın zəruriliyi mesajını vermiş oldu. Heç şübhə yoxdur ki, bu qətiyyətli mövqenin davamı gələcək. Hər halda, Azərbaycanın qonşusu, Ermənistanın müttəfiqinin düzgün seçim etməsi bölgədə əmin-amanlığın təmin olunması baxımından mühüm rol oynaya bilər.

**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycanın məqsədlərini geniş şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Deputat vurğulayıb ki, əgər problem danışıqlar yolu ilə həllini tapsaydı, müharibəyə zərurət yaranmazdı:** "Azərbaycan müharibəni öz ərazisində apararaq, ərazi bütövlüyünü təmin etdi. Beynəlxalq güclərin görə bilmədiyi işi Azərbaycan Ordusu öz hərbi gücü ilə edərək tarixi Zəfər qazandı. Bu gün ölkəmiz müharibənin bitdiyini elan edib. Azərbaycan regionda yaranmış yeni reallığa uyğun gündəliyi müəyyənləşdirərək maraqlı tərəflərə təqdim edir. Bu, gündəlik bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına, əməkdaşlıq mühitinin formalaşmasına istiqamətlənib. Ölkəmiz Ermənistana sərhədlərin delimitasiya və demarkasiya edilməsini və iki ölkənin ərazi bütövlüyünün tanınmasını təklif edir. Prezident İlham Əliyevin öz müsahibəsində qeyd etdiyi kimi, "biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik, əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Burada bir məqamı yaddan çıxarmaq lazım deyil ki, sadə ermənilər Ermənistanın acı məğlubiyyətini qəbul ediblər və bununla barışıblar. Çünki belə olmasaydı, məğlub olmuş birini yenidən səs verərək hakimiyyətə qaytarmazdılar. İrəvanda ermənilər arasında aparılan sorğularda respondentlər Qarabağın Azərbaycanın ərazisi olduğunu və yenidən müharibə olacağı təqdirdə Azərbaycan ordusu ilə savaşa getməyəcəklərini bildiriblər. Bu o deməkdir ki, Ermənistanın əksər əhalisi Azərbaycanla qonşuluq münasibətlərində yaşamağa hazırdır".

**Parlament üzvü qeyd edib ki, erməni rəhbərliyi revanşist bəyanatlardan çəkinməli, regionda sülhün və əməkdaşlığın davamlı olmasına xidmət edəcək addımlar atmalıdır:** "Bunun üçün imzalanmış üçtərəfli bəyanatların yerinə yetirilməmiş maddələri icra olunmalı, sərhədlərin delimitasiya və demarkasiya prosesi başa çatdırılmalıdır. Həmçinin, sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüsümüzə də cavab verilməlidir. Təbii ki, Ermənistan sülh təklifimizə müsbət cavab verərək müqaviləni imzalamağa hazır olduğunu bildirsə, bu, ilk növbədə Ermənistanın özü üçün fayda verəcək, həm də bütün region ölkələri üçün. O cümlədən Avrasiya regionunda əməkdaşlığın möhkəmlənməsi üçün yeni imkanlar yaranacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Laçında inşa olunacaq hava limanı strateji qələbədir

*Regionda proseslər artıq yeni və geriyə dönməyən mərhələyə qədəm qoyub*



"Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfərlərinin siyasi və iqtisadi əhəmiyyəti ilə yanaşı, işğaldan azad olunan torpaqlarımızın bərpası prosesinin sürətlənməsi baxımından strateji təsirləri var. Sözügedən səfərin iqtisadi tərəfləri artıq müzakirə olunduğundan məsələnin strateji istiqamətlərinə diqqəti çəkmək vacib olardı".

Bunu Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib. Deputat bildirib ki, Laçında inşa ediləcək Beynəlxalq Hava Limanı, Kəlbəcərdə reallaşan vacib infrastruktur layihələri proseslərin geri dönməzliyini göstərən meyarlardır: "Ermənistandakı bəzi revanişt meyllərə baxmayaraq, regionda proseslər artıq yeni və geriyə dönməyən mərhələyə qədəm qoyub. İkincisi, Ermənistan silahlı qüvvələrinin mövqelərimizi yenə də atəşə tutmasına baxmayaraq, Azərbaycan bərpa və quruculuq işlərini davam etdirir və bu da ölkəmizin, o cümlədən ordumuzun gücünü göstərən faktorlardan biridir. Üçüncüsü, Kəlbəcər və Laçın rayonları region üçün mühüm coğrafi mövqeyə malikdir və həyata keçirilən bərpa və yenidənqurma işləri strateji mövqelərimizi daha möhkəmləndirəcək. Dördüncüsü, müharibədən sonra ölkə rəhbərliyinin Kəlbəcərə səfəri bir daha təsdiq edir ki, artıq regionda yeni düzən formalaşıb və nəinki bölgə ölkələri, eləcə də bizim coğrafiyada marağı olan dövlətlər də bu reallığı nəzərə almalıdırlar".

V.Bayramov qeyd edib ki, son səfər təsdiq edir ki, kifayət qədər həssas olan Cənubi Qafqazda davamlı sülh və inkişafın əldə olunması 44 günlük savaşdan sonra qazandığımız zəfər kontekstində formalaşan reallığa uyğun olaraq kommunikasiyaların bərpası və ölkələrin qarşılıqlı ərazi bütövlüyünü tanımasından keçəcək: "Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır".

**Aynurə Pənahqızı**

# Şükürlər olsun...



Yeni tikilən yol Kəlbəcər İstisuyuna qısa marşrutla getməyə imkan verəcək

*Laçın şəhərinə məsafə qısalacaq*

"İşğaldan azad olunmuş bütün ərazilərdə olduğu kimi, Laçın və Kəlbəcər rayonlarında da avtomobil yollarının bərpası və yeni yolların salınması sürətlə davam edir". Bunu nəqliyyat üzrə ekspert Ərşad Hüseynov deyib. Ekspert bildirib ki, məlumatı olanlar bilir ki, bu iki rayon sovet dövründə ən bərbad yol infrastrukturuna sahib idi: "Bəlkə də bunda da bir müəmma var: - hər iki rayonun mərkəzinə yalnız o vaxtkı DQMV-dən keçib getmək mümkün idi.

Qonşu olan bu iki rayon arasında ilboyu istifadəsi mümkün olan bir dənə də yol yox idi. Elə məhz bu yolsuzluq Birinci Qarabağ müharibəsində hər iki rayon üçün bəlaya çevrildi. 1988-ci ildə separatçı vandallar baş qaldıranda onların hər ikisi faktiki blokadaya düşdü. Ən faciəlisi o idi ki, bu iki rayonu digər qonşuları ilə - Laçını Qubadlı ilə, Kəlbəcəri Göygöl və Daşkəsənlə birləşdirən normal yol da yox idi. Laçından cənuba, yeni Qubadlı istiqamətinə yol bir az babat idi, amma bu yol da əslində kənd yolu idi, Laçın şəhərini Güləbird kəndi və rayonun digər cənub kəndləri ilə birləşdirmək üçün çəkilmişdi. Asfalt örtüyü yox idi, trası da çox çətin idi: sərt döngələr, sərt eniş-yoxuş, bəzi yerlərdə iki maşın qabaqlaşanda keçmək olmurdu və s. I Qarabağ müharibəsi başlayan kimi separatçılar hər iki rayona gedən və hər iki rayonda asfalt örtüyü olan yeganə yolları - Tərtər-Kəlbəcər və Ağdam-Şuşa-Laçın yolunu bağladılar. Bundan sonra Qubadlı-Laçın-Kəlbəcər-Gəncə istiqamətində yolları normal vəziyyətə gətirmək üçün cid-di-cəhdlər oldu. Amma təəssüf ki, ovaxtkı imkan və resurslarla çox iş görmək mümkün olmadı. Sonrası da hər kəsə məlumdur: ardarda hər iki rayon işğal edildi. Bu işğalda yolsuzluq çox mühüm rol oynadı".

**Ə.Hüseynov qeyd edib ki, 44 günlük müharibədən sonra təəssüf ki, hər iki şəhərə aparan sovet dövrünün asfalt yolu sülhməramlıların nəzarəti altındadır:** "Bütün imkanlarımızdan istifadə etməklə həmin yollara tam suveren nəzarəti bərpa etmək, şübhəsiz ki, yaxın gələcək üçün dövlətimizin əsas hədəflərindəndir. Lakin şükürlər olsun ki, sovet dövründə buraxdığımız ciddi səhvləri düzəltməyə başlamışıq. Hazırda Laçın və Kəlbəcərdə çox yüksək templə vacib əhəmiyyətli yollar çəkilir. Bundan başqa, hazırkı Laçın dəhlizinə alternativ yol da layihələndirilməkdədir. Daha bir maraqlı layihə Güləbird kəndindən və ümumiyyətlə cənubdan Laçın şəhərinə yolu qısaldacaq və trası yaxşılaşdıracaq yoldur. Söhbət təxminən 10 gün əvvəl barəsində danışılan, özü də düzgün və detallı danışılmadığına görə bəzi adamlarda sual yaradan 23 km-lik yoldan gedir. Həmin yeni yol həm Laçın şəhərinə yolu qısaldacaq. Güləbirddən Laçın şəhərinə olan məsafə 15-20 km qısalacaq. Həm Zabuxa və oradan Minkəndə, daha sonra Kəlbəcər İstisuyuna qısa marşrutla getməyə imkan verəcək. Həm də sərt eniş-yoxuş və döngələr olmayacaq. Bu yeni yol təxminən Qayğı qəsəbəsi bərabərindən başlamaqla hər yerdə Həkəri çayı qırağı ilə gedərək indiki asfalt yola (Laçın-Zabux yoluna) birləşəcək.

Laçın və Kəlbəcərdə çoxlu kəndarası yollar, habelə Qərbi Zəngəzurla sərhədə doğru yollar tikilir. Artıq xeyli işlər görülüb. Məsələn, Toğanalı-Kəlbəcər-İstisu-Minkənd yolunun və Kəlbəcər-Laçın yolunun Qorçuya qədər olan hissəsinin yatağı tam hazırdır. Kipləşmə və narın çınqılla bərkitmə işləri görülüb, yalnız asfalt ötrük qalır. Murovun hər iki tərəfində yolun trası da xeyli yaxşılaşdırılıb. Şükürlər olsun ki, qalan yollarda və qeyd etdiyim istiqamətlərin davamında da işlər eyni sürətlə davam edir. Ordumuzun operativ yerdəyişmələri, yüksək səviyyədə logistikası, həm də yaxın gələcəkdə böyük qayıdış üçün yollar çox önəmlidir".

**İsmayıl**



## Reketçiliyin kökü kəsilməlidir

"Korrupsiyaya qarşı mübarizə gücləndikcə belə problemlər də avtomatik həllini tapacaq"

**Şəki Şəhər Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində vətəndaşları aldadaraq onlara qarşı dələduzluq etməkdə şübhəli bilinən Bakı şəhər sakini İqbal Muğumov saxlanılıb.**

DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, araşdırma zamanı özünü bloger, jurnalist kimi təqdim edən İ.Muğumovun Ramiz Əmirov adlı şəxsin problemini həll edəcəyi vədi ilə onu aldadıb, 600 manat pulunu ələ keçirdiyi məlum olub.

**Media hüquqşünası Ələsgər Məmmədli belə hallarla mübarizə barədə "Şərq"ə danışıb:** "Cinayət Məcəlləsinin 178-ci maddəsi dələduzluqla bağlıdır. Orada göstərilir ki, külli miqdarda pul mənimsənildiyi halda, cinayətkara 12 ilədək həbs cəzası verilir. Yeni qanunverciliyin tələbləri yerindədir. Sadəcə belə halların meydana çıxmasına səbəb insanların korrupsiyanın problemlərin həlli yolu olmasını hesab etməsidir. Yeni korrupsiyaya qarşı mübarizə gücləndikcə belə problemlər də avtomatik həllini tapacaq".

**Kənan**

# "Məhərrəm ayında toy edənlərin xoşbəxtliyi 99 faiz sual altındadır"

*"Bu məsələyə fərqli münasibət sərgiləyən insanların bir-birinə daha dözümlü yanaşması lazımdır"*







Hacı Surxayın açıqlaması cəmiyyətdə ciddi rezonans doğurdu

İlahiyyat elmləri doktoru, İçərişəhər "Cümə" məscidinin axundu, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Hacı Surxayın Məhərrəmlikdə toy-nişan məclislərinin qurulması ilə bağlı açıqlaması cəmiyyətdə ciddi rezonans doğurub. Din xadimi deyib ki, Məhərrəm ayında toy etməyə icazə yoxdur və bu, Peyğəmbərin ailəsinə qarşı təhqirdir. Həmçinin, qeyd edib ki, Məhərrəmlikdə sevinmək də, toy etmək də məsləhət görülmür: "Məhərrəm ayında toy edənlərin xoşbəxtliyi 99 faiz sual altındadır.

Əgər ailə səadətindən, xoşbəxtlikdən danışa bilmiriksə, uşaqların sağlamlığı da sual altında olacaq. Bir din xadimi olaraq bu mənim subyektiv fikrimdir". **Sosial şəbəkədə geniş müzakirələrə səbəb olan açıqlamaya QMİ nümayəndəsi Hacı Şahin Həsənli də münasibət bildirib. İlahiyyatçı vurğulayıb ki, Məhərrəm ayında toy etmək qadağalar kateqoriyasına daxil deyil:** "Olar-olmaz məsələsi də deyil, şəriətimiz buna icazə verir, halal-haram mövzusu deyil. Bu, könül, qəlb məsələsidir. Kərbəla faciəsi uzun müddətdir ki, geniş şəkildə qeyd olunur. Əsrlər keçdikcə insanlar könüllü olaraq şadlıq mərasimlərindən imtina edibl ər. Ona görə də məhərrəmlikdə toy etməmək könül məsələsidir".

Hacı Şahin Həsənlinin fikrincə, bu, o qədər böyük bir faciədir ki, ehtiram əlaməti olaraq insanlar bu ayları ağır ay kimi qəbul ediblər: "Ona görə də toy etməyi məqsədəuyğun saymayıblar. Toydan, şadyanalıqdan imtina ediblər. Mən də hesab edirəm ki, Peyğəmbər ailəsinə, dinimizə sayğı əlaməti olaraq bu ənənə elə davam etsə, daha yaxşı olar. Məhərrəm ayında toy edənlərin uşaqlarının aqibətinin necə olacağı ilə bağlı qəti bir şey deyə bilmərəm. Heç kimə belə arzu etmirik. Burada söhbət mənəvi öhdəlikdən gedir. Vacib deyil ki, insanlar hansısa cəza ilə qarşılaşsın, sonra bu əməli tərk etsin".

**AĞ Partiya sədrinin ideoloji məsələlər üzrə müşaviri Azər Hüseynov "Şərq"ə açıqlamasında deyib ki, qeyd edilən fikrin subyektiv olduğunu din xadiminin özü ifadə edib. Partiya rəsmisinin sözlərinə görə, Azərbaycan hər iki məzhəbdən olan müsəlmanların yaşadığı ölkədir:** "Tarixən Azərbaycanın Bakı, Lənkəran, Naxçıvan və digər bölgələrində məhərrəm ayına xüsusi həssaslıqla yanaşılıb. Bu ayda toy edilməyib. Ancaq Qazax, Qusar, Quba, Zaqatala və digər bölgələrdə məsələyə baxış fərqli olub. Peyğəmbər əleyhissəlamın ailəsinə hər bir müsəlman ehtiram edir. Lakin bu məsələyə fərqli münasibət sərgiləyən insanların bir-birinə daha dözümlü yanaşması lazımdır. Ona görə din xadimləri daha korrekt ifadələr seçsələr gözəl olar. Əlbəttə, din xadimi Məhərrəm ayında insanlara toy etməməyi tövsiyə edə bilər. Amma uşaqların sağlamlığı kimi məsələlər belə tövsiyələrdə istifadə edilməməlidir. Ümumiyyətlə, bu cür məsələlərin çözümü cəmiyyətin düzgün dini maarifləndirilməsindən keçir".

**İsmayıl Qocayev**

# "Yuxuma da girməzdi bir gün Cıdır düzündə şəklim olacaq"

*Dilqəm Əhməd: "Şuşaya getmək bütün azərbaycanlıların arzusu, hamının haqqıdır"*



Diasporla İş üzrə Dövlət Komitəsi diaspor nümayəndələrinin, xarici jurnalistlərin və elm adamlarının Şuşaya səfərini təşkil edib. Komitədən vurğulanıb ki, bu cür səfərlər beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında əvəzsiz rol oynayır.

Qeyd olunub ki, səfər çərçivəsində Şuşa şəhərinin baş meydanı "Bazarbaşı"nı, Cıdır düzünü, erməni vandalizminə məruz qalmış "Güllələnmiş heykəllər"in olduğu meydanı, Şuşa Bəyannaməsinin imzalandığı məkanı, Xurşidbanu Natəvanın evini, "Xan qızı bulağı"nı, Gəncə Qapısını, Saatlı, Aşağı və Yuxarı Gövhər ağa məscidlərini və digər mühüm yerləri ziyarət ediblər. Qarabağın incisi olan qədim Şuşanın tarixi, mədəniyyəti, dahi şəxsiyyətləri və bu gün ölkə rəhbərliyinin tapşırığı ilə burada aparılan quruculuq işləri barədə diaspor nümayəndələrinə ətraflı məlumat verilib. Bəyan edilib ki, diaspor nümayəndələrinin Qarabağa 2-ci səfərində 26 ölkədən 102 diaspor nümayəndəsi iştirak edib. Həmçinin, diqqətə çatdırılıb ki, Komitənin təşkilatçılığı ilə xarici jurnalistlərin və diaspor nümayəndələrinin Qarabağa səfərləri mütəmadi olaraq həyata keçiriləcək.

**Şuşaya səfər edən heyətin içində araşdırmaçı-yazar, "Çapar" jurnalının təsisçisi Dilqəm Əhməd də olub. Yazar Qarabağa səfərlə bağlı qısa təəssüratlarını qeyd edib:** "Ötən ilin bu günü mənə deyilsəydi, gələn il Cıdır düzündə şəklin olacaq, deyərdim ki, heç yuxuma da girməz.

Öncəliklə bütün bu işlərin memarı Tanrıdır. Ədalətsizliyin, haqsızlığın bir gün ortadan qalxacağı inancındaydım. Şübhəsiz ki, bu xoşbəxtliyi bəxş edən Vətən torpaqlarını qanları, canları ilə azad edən əsgərlərimiz, zabitlərimizdir. Şəhidlərimizin sayəsində Vətən torpağımız azad olub. O şəhidlər ki, biz onları 15 sentyabr 1918-də, 3-27 aprel 1920-də, 20 yanvar 1990-da, eləcə də 1988-1994-cü illərdə və ondan sonrakı atəşkəs illərində gördük. Azərbaycan xalqı hər cür işğala qarşı sayı 100 nəfər olanda da döyüşüb, 10 milyon olanda da. Tanrı şəhidlərimizi hər zaman ucaltsın, öz məqamında qorusun, qazilərimizə cansağlığı versin. Şübhəsiz ki, neçə illərdir bu həlledici qələbəyə hazırlaşan və zaman gəldiyində həyata keçirən Ali Baş Komandanın və onun müzəffər zabitlərinin zəfərə aparan planı sayəsində bunlar gerçəkləşdi".

**D.Əhməd bildirib ki, Şuşaya getmək bütün azərbaycanlıların arzusu, hamının haqqıdır:** "Başda o torpaqlarda doğulan, böyüyən insanların haqqıdır. İnşallah, hər kəs müxtəlif qurumların siyahısına düşər və 30 illik həsrətə son qoyular. 5 ildir ki, İstanbulda yaşadığım, orada doktorantura təhsili aldığım, İstanbul Azərbaycan Kültür Evinin yayın işlərindən sorumlu olduğum, Türkiyədə qurulan təşkilatların (1920-1990), eləcə də Türkiyə mühacirətinin tarixini yazdığım, Diaspora Komitəsi və İstanbul Konsulluğu ilə bu çərçivədə İstanbulda bir çox işlər gördüyüm üçün bu siyahıya düşmək qismət oldu. Ona görə də Diasporla iş üzrə Dövlət Komitəsinin sədri cənab Fuad Muradova, Türkiyə üzrə səlahiyyətli nümayəndə Kənan Arif bəyə minnətdarlığımı bildirirəm. Səfər təəssüratlarımı daha sonra silsilə məqalələr şəklində təqdim edəcəm".

**İsmayıl Qocayev**

# Su olsa pambıq əkənlərin sayı artacaq

*Ağ qızılın alış qiymətinin artırılması önəmli hadisədir*



Pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlər məhsul yığımı ərəfəsində pambığın alış qiymətinin artırılması barədə qərar qəbul ediblər. Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən bildirilib. Məlumata görə, şirkətlər arasında əldə olunan razılaşmaya əsasən, pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2021-ci ilin məhsulu üçün 1-ci növün qiyməti 650 manatdan 700 manata, 2-ci növün qiyməti 630 manatdan 680 manata, 3-cü növün qiyməti 590 manatdan 640 manata, 4-cü növün qiyməti 550 manatdan 600 manata qaldırılıb. Bu qərar fermerlərin məhsul istehsalına həvəsləndirilməsi üçün qəbul olunub.

Pambığın hər tonunun alış qiymətinin 50 manat artırılması nəticəsində pambıq istehsalı ilə məşğul olan fermerlər xeyli əlavə qazanc əldə edəcəklər. Bu, Prezident İlham Əliyevin fermerlərə göstərdiyi qayğı və diqqətin növbəti təzahürüdür. Qeyd edək ki, pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Təhvil verilən pambığın hər tonuna görə fermerlərə 100 manat subsidiya ödənilir. Bundan başqa, fermerlər pambıq əkdikləri sahənin hər hektarına görə 260 manat əkin subsidiyası alırlar. 2020-ci ildə Azərbaycanda 336 min tondan artıq pambıq istehsal olunub, pambıq üzrə orta məhsuldarlıq 33,6 sent/ha təşkil edib. Bu, son illər pambıqçılıqda qeydə alınan ən yüksək məhsuldarlıqdır. Pambığın alış qiymətinin artmasının bir çox üstünlükləri olduğunu vurğulayan iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında deyib ki, bu, ilk növbədə fermerlərin məhsul istehsalına həvəsləndirilməsi üçün qəbul olunmuş bir qərardır. **Ekspert qeyd edib ki, bütün bunlar fermerlərin öz işlərinə olan bağlılıqlarını və həvəslərini artıracaq:** "Təbii ki, bu da nəticədə Azərbaycanı dünyanın ən inkişaf etmiş texnologiyaları ilə pambıq istehsal edən dövlətinə çevirəcək. Yəni gələcəkdə Azərbaycan təkcə xammal ölkəsi kimi yox, həm də tekstil sənayesini inkişaf etdirən bir ölkəyə çevriləcək. Pambığın alış qiymətinin artımı indiki halda çox önəmlidir. Bu, pambıq sahələrinin artımına və pambıq əkən fermerlərin gəlirlərinin artmasına səbəb olacaq. Bununla bağlı qeyd etmək lazımdır ki, alış qiyməti artsa da, bir sıra problemlər də hələ də mövcuddur. Məsələn, sahələrin susuz qalması ilk növbədə fermeri çox çətin vəziyyətə salır. Onun bəzi hallarda xərcini belə ödəmir. Suvarma baxımından problemlər tək kanalların qazılması, təmizlənməsi, suyun verilməsi ilə deyil, eləcə də gündəlik işıqların sönməsi ilə də bağlıdır. Təsəvvür edin, gündə ən azı 1 saat işıq sönməsi nə qədər nasosların dayanması deməkdir. Bu da sonda məhsuldarlığın kəskin azalmasına səbəb olur. Ümid edirəm ki, bu problemlər də tez bir zamanda öz həllini tapacaq. Bir məsələni də xüsusi olaraq qeyd edim ki, bu qərar əsasında gələn il pambıq məhsullarının əkin sahələrinin sayı artacaq. Çünki kəndli daha çox alış üçün pul verildiyini görüb, daha çox həmin məhsulu əkmək istəyəcək. Ancaq bu il kimlər ki, əkib və qeyd etdiyim problemlərlə üzləşib, onlar pambıq əkin sayını azaldacaq. Bu problemlər tək pambıq üçün deyil, taxıl və sair əkin sahələri üçün də önəmli faktdır. Hesab edirəm ki, yerli qurumlar suvarılmada bərabərliyi gözləməlidir, yəni vəzifəli adamın əkin sahəsinə daha çox su verib, digərinin haqqına girməməlidir".

**Aynurə Pənahqızı**

# Yeməyinizə, içməyinizə diqqət edin!

*İsti havalarda sağlamlığı qorumaq bir nömrəli vəzifə olmalıdır*




Son günlər ölkəmizin bir çox bölgələrində isti hava müşahidə olunur. Həkimlər isti havanın hətta ürəyindən şikayəti olmayan insanlar üçün belə təhlükəli, riskli olduğunu deyir. Bəs istilərdən qorunmaq üçün nələr edilməlidir?

**Həkim qastroenteroloq-hepatoloq Fərrux Nağıyev "Şərq"ə açıqlamasında deyib ki, çox isti hava insan sağlamlığı üçün müəyyən təhlükələr yaradır:** "İstidə bütün orqan və sistemlər, xüsusilə ürək-damar, nəfəsalma, endokrin, sidik ifrazı və s. yüklənir ki, bu da onlarda pozulmaların riskini artırır. Belə vəziyyətdə sağlamlığı qorumaq üçün bəzi tövsiyələrə riayət etmək lazımdır. İlk növbədə qəbul etdiyimiz qidaların miqdarını azaltmaq lazımdır. Gün ərzində tez-tez (4-5 dəfə) və daha az yemək lazımdır. Ümumiyyətlə, yemək porsiyaları azaldılmalıdır. Qidalanmaya süd məhsullarını (qatıq, ayran, kəsmik və s.) artırmaq məsləhətdir. Bu məhsullar orqanizmin isti havada pozulan turşu-qələvi balansını bərpa edir, onu daha qələvi edir. Alimlərin fikrinə görə, orqanizmin turşu-qələvi balansının pozulması, onun daha "turş" olması bir çox xəstəliklərin, o cümlədən xərçəngin əsas səbəblərindən biridir. Qidalanmada meyvə, tərəvəz, göyərti daha çox, ət daha az olmalıdır. Meyvətərəvəz və göyərtilər də pozulmuş turşu-qələvi balansını bərpa edir. Ümumiyyətlə, bağlı və qızardılmış qidalar, şirniyyatlar (tort, pirojna və s.) rasiondan xaric edilməlidir. Gün ərzində 2 litr təmiz qazsız su içilməsi məsləhətdir. Həmçinin, isti havada spirtli içkilərdən imtina edilməlidir. Ədviyyatlardan isə olduqca daha az istifadə edilməsi məsləhətdir. Çünki ədviyyatlar qan dövranını və maddələr mübadiləsini sürətləndirir, orqanizmə istilik verir".

**Həkim-pulmonoloq Nərminə Rəfiyeva isə "Şərq"ə açıqlamasında deyib ki, istilərdən qorunmaq üçün ilk növbədə, zərurət olmadıqda evdən çıxmamaq məsləhətdir:** "Bu məsləhət təkcə xroniki xəstəlikləri olan insanlar üçün deyil, hamıya aiddir. Otaqların havalandırılmasına xüsusi diqqət yetirmək lazımdır. İsti havada enerjiyə tələbat aşağı düşdüyünə görə, yayda kalorili yeməklər orqanizmə çox lazım deyil. Çoxlu çay, meyvə şirəsi, mineral su, vitaminli içkilər qəbul edilməlidir. Tərkibində şəkər olan qazlı sular, energetik içkilər və alkoqollu içkilər məsləhət deyil. Gün ərzində ən azı 1,5-2,0 litr su içilməlidir. Böyrək və ürək-damar xəstəlikləri olan insanlar xüsusilə maye qəbulunu çoxaltmamalıdır".

*Həkimin sözlərinə görə, pandemiya dövründə yaşadığımıza görə, immuniteti də mütləq möhkəmlətmək lazımdır:* "Bunun üçün çoxlu meyvə-tərəvəz qəbulu mütləqdir. Gün ərzində imkan olduqca çox isti olmayan ılıq duş qəbul edin. Bu sadə qaydalara riayət edilsə, özümüzü qızmar günəşdən və isti havadan qorumuş olarıq".

**Aynurə Pənahqızı**

# Xalq artisti bir əfqan cocuğu himayəsinə götürmək istəyir



## *Aktrisanı dəstəkləyənlərlə yanaşı, onu tənqid edənlər də oldu*



"Alqışalayiq addımdır. Üstünü qara buludlar almış Əfqanıstanın bir övladını himayəyə götürməyin nəyi pisdir? Naibə xanım, eşq olsun"

"Çox istərdim əfqan uşaqlardan birini himayəmə götürüm, anası olum". Bu sözləri instaqram hesabında Xalq artisti Naibə Allahverdiyeva yazıb. O, Əfqanıstanda baş verən olaylardan təsirləndiyini, oradakı uşaqlardan birini xilas etmək istədiyini söyləyib.

Naibə xanımın diləyi, dünyanın çirkli simasında qeyb olan bir cocuğu həyata qaytarma cəhdi çox gözəldir. Çünki orada hər an ölüm qorxusu ilə yaşayan, məmləkətlərini tərk etməli olan uşaqların günahı yoxdur. Lakin sənətçini dəstəkləyənlərlə yanaşı, tənqid edənlər də var.

**”Şərq” xalq artistinin özü ilə əlaqə saxlayıb. O, fikrində qərarlı olduğunu xüsusi vurğulayıb:** ”Bilmirəm ki, hara müraciət etmək lazımdır. Söyləyirlər ki, çətin prosesdir. Bilirsiniz ki, orada vəziyyət gərgindir. Uşaqların həyatları təhlükədədir. Bir uşağa həyat vermək insanlığa xidmətdir. Əfqanıstandakı hadisələrə laqeyd yanaşa bilmərəm. Biz humanist millətik, mərhəmətliyik. Bəziləri yazıblar ki, öz uşaqlarımızdan övladlığa götürə bilərsiniz. Mənim övladım var. O insanlardan birini xilas etmək fikrindəyəm. Uşaqlar mələkdirlər, onlar dünyanın gözəlliyidir. Qorxsam, bu qərara gəlməzdim. Körpələri çox sevirəm. Onun əfqan, ya da azərbaycanlı olmasının bir fərqi yoxdur. Hamımız bəşərin övladıyıq, bununla yanaşı müsəlmanıq. Bir-birimizə kömək etməliyik. Axı körpələrin, qadınların faciəsinə necə laqeyd yanaşmaq olar? Təki arzum həyata keçsin, çox sevinərəm”.

**Vətəndaş Cəmiyyəti Alyansının rəhbəri, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdçüsü, kitabxana.net, yenimedia.net portallarının təsisçisi, analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilov Naibə xanıma irad bildirənlər haqda danışıb:** ”Təəssüf ki, Azərbaycan cəmiyyəti həddindən artıq radikallaşıb. İstər xırda məsələləri, istərsə də qlobal hadisələri ya lağlağı, ya da tənqid-təhqir edən insanlar toplusuna çevrilib. Müxtəlif səbəblərə görə valideyn himayəsindən məhrum olmuş, yetim qalmış şəxsi övladlığa götürmək alqışalayiq addımdır. Üstünü qara buludlar almış Əfqanıstanın bir övladını himayəyə götürməyin nəyi pisdir? İkinci Dünya müharibəsi zamanı millətimiz rus, belarus uşaqlarına sahib çıxdı. Eləcə də bir azərbaycanlını xaricilər övladlığa götürəndə alqışlayırıq. Heyvan hüquqlarını müdafiə edir, meşə yanğınları ilə mübarizə aparırıq. Qeyd edim ki, Əfqanıstanda əhalinin 7 faizi Azərbaycan türküdür. Sözügedən təşəbbüsü tənqid etmək olmaz. Cəmiyyətimiz həmişə humanist olub. Həm də biz multikultural toplumuq. Ölkəmizdə 70-ə yaxın millətin nümayəndəsi rahat yaşaya bilir. Onu da deyim ki, Əfqanıstanda hakimiyyət dəyişikliyindən asılı olmayaraq əfqanlar Azərbaycana daim isti münasibət bəsləyiblər. Bizə din və mentalitet baxımından yaxın olan əfqan uşağını himayəyə götürən bir şəxsə qarşı aqressiyanı başa düşə bilmirəm. N.Allahverdiyevanı dəstəkləyirəm. Əlbəttə, yaxşı olardı ki, Azərbaycan uşaqlarını övladlığa götürsün. Yəqin hazırkı situasiyaya, Əfqanıstanda insanlara, qadınlara olan münasibətə və gələcəkdəki radikal addımlara görə bu fikri səsləndiirb. Naibə xanıma eşq olsun”.

**Samirə Ərəblinski**

## “Yerini tuta bilmədilər"

Prodüser Tarix Əliyev İlhamə Quliyevanı unutmadı



**Xalq artisti İlhamə Quliyeva yaşasa, 78 yaşı tamam olacaqdı. Avqustun 17-i mərhumun doğum günü idi.**

Bu münasibətlə sevənləri, sənət dostları sosial şəbəkələrdə onu yad ediblər.

”Şərq” xəbər verir ki, prodüser Tarix Əliyevin (Tolik) paylaşımı xüsusilə diqqət çəkib. O, statusda bu sözləri yazıb: ”Yoxluğunda çoxu istəsə də, nə yerini tuta bildilər, nə də sən oldular. Ola bilməyəcəklər də! Sağlığında qapına güllər düzən bəzi manıslar indi kimdənsə, nədənsə çəkinib şəklini paylaşmadılar. Sən İlhamə oldun, sözünü dedin, tarixdə qaldın”.

## Xatirə üzgündür

“Allahım, özün kömək ol, dünyamız murdarlanır”



**Müğənni Xatirə İslam instaqramda növbəti dəfə paylaşım edib.**

Onun posta yazdığı qeyd izləyicilərinin marağına səbəb olub.

”Şərq” xəbər verir ki, X.İslam bunları deyib: ”İnsanlar dəyişir. Bunu günbəgün hiss etmək olur. Dünyanı insan əlləri gözəlləşdirdi, o da məhv edir. Ana balaya, bala anaya yadlaşır. Hamı bir-birini aldadıb, özünə xeyir güdür. Allahım, özün kömək ol. Dünyamız murdarlanır”.

## Nüşabə Ələsgərli qızının toyundan fotolar paylaşdı

İzləyiciləri bəyəndi, təbriklərini çatdırdılar



**Müğənni Nüşabə Ələsgərli qızı Nigarın toyundan yeni fotoları izləyiciləri ilə bölüşüb.**

”Şərq” xəbər verir ki, sənətçinin paylaşımı izləyicilərinin marağına səbəb olub. Onlar ifaçıya təbriklərini çatdırıblar.

*Qeyd edək ki, Nigar Türkiyə vətəndaşı Doğanla 2019-cu ilin dekabrında nişanlanıb. Cütlüyün toyu pandemiyaya görə ötən il Türkiyədə baş tutub. İkinci toyları isə yaxın günlərdə paytaxtdakı şadlıq evlərinin birində keçirilib.*

## “Ordenin mübarək, əzizim"

Elnarə Xəlilova həyat yoldaşını təbrik edib



**Müğənni Elnarə Xəlilovanın həyat yoldaşı Rövşən Cahangirov Prezident İlham Əliyev tərəfindən təltif edilib.**

”Şərq” xəbər verir ki, o, ” Vətənə xidmətə görə” ordeninə layiq görülüb. Sənətçi həyat yoldaşını instaqram profilində təbrik edərək ”Ordenin mübarək, əzizim” qeydini yazıb.

*Xatırladaq ki, R.Cahangirov bir vaxt aparıcı kimi çalışıb. O, hazırda hərbçidir.*

**(Hazırladı: Samirə )**

## Niyam aparıcıya evlənmək təklif edib

Lakin xəbəri çox gec çatdırıblar



**Müğənni Niyam Salami ”Onun sirri” proqramındakı açıqlaması ilə diqqət çəkib. O, verilişin aparıcısı Lətafət Ələkbərova ilə bir vaxt evlənmək istədiyini söyləyib.**

”Şərq”in məlumatına görə, sənətçi, hətta L.Ələkbərovaya xəbər göndərdiyini deyib: ”Səhnə insanısan, xarici görkəmin, duruşun, mədəniyyətin mənə yaxındır. Ona görə bir dostumla xəbər yolladım. Dedim, Lətafətə söylə, razılaşaq. Sənə evlilik təklif etdim”. Aparıcı Niyamın sözlərini təsdiqləyib: Hə. Amma xəbəri düzgün çatdırmadılar. Çox gec dedilər”. N.Salami bunun öz günahı olmadığını xüsusi vurğulayıb: ”Sadəcə səhv etdim. Gəlib, özüm deyə bilərdim. Lakin utanıb, çəkindim”.

## Yeni səsi hamı bəyəndi

Xumar Qədimova bacısı ilə duet oxuyub



**Əməkdar artist Xumar Qədimova bacısı ilə duet oxuyub. O, sevənlərinə sürpriz edərək ”Heç bir şey söyləmə” adlı mahnını bacısı Matanla birgə ifa edib.**

”Şərq” xəbər verir ki, sənətçi yeni mahnısı haqda bu sözləri yazıb: ”Səsinə qurban olduğum, təşəkkür edirəm. Baxmayaraq ki, illərdir oxumağın üçün sənə yalvarıram. Səndən gözəl nəğmələr gözləyirəm. Sözümü yerə salma, kömür gözlü Matanım”.

İki bacının ifası dinləyicilər tərəfindən rəğbətlə qarşılanıb. X.Qədimovanın bacısının səsi olduqca bəyənilib.

# TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 9438-233797/2018-15-27 saylı, 06.07.2021-ci il tarixli sifarişi ilə, beton dabanaltı (1000x1000) - 1 ədəd; beton dabanaltı (1000x800) - 1042 ədəd; beton bilərzik (1000x250) - 37 ədəd; veton bilərzik (1000x300) - 90 ədəd; beton bilərzik (1000x400) - 681 ədəd; beton bilərzik (1000x600) - 655; beton bilərzik (1500x400) - 70 ədəd; beton bilərzik (1500x600) - 101 ədəd; beton konus (1000x600) - 787 ədəd; beton konus (1500x600) - 75 ədəd; beton plitə (1,5) - 378 ədəd; beton plitə (2x2) - 81 ədəd; beton plitə (1x1) - 13 ədəd və 29 ədəd beton boruya (800x2000) dair (istifadə olunmuş vəziyyətdə) 16 avqust 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar satış qiyməti olan, ümumilikdə 230.576 (iki yüz otuz min beş yüz yetmiş altı) manatdan 30% aşağı, yəni 161.403 (bir yüz altmış bir min dörd yüz üç) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 27 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 16.140 (on altı min bir yüz qırx) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*

# HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Quba rayon İcra və Probasiya Şöbəsinin 18.08.2021-ci il tarixli, 90751/16-03 (daxil olma 18.08.2021) saylı sifarişi ilə VAZ 240 minik markalı, 40-BG-345 dövlət nömrə nişanlı (mühərrik həcmi 1700), 1996-cı il buraxılışlı, ağ rəngli avtomobil açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 27 avqust 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 3.000 (üç min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni 300 (üç yüz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*

# HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 7514/152113/20-15-18 saylı sifarişi ilə "Avesta Konserni" MMC-nə məxsus Bakı şəhəri, Yasamal rayonu, H.B.Zərdabi pr-ti 74 ünvanında yerləşən 27,68 kv. m. qaraj sahəsi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 24 avqust 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 27.680 (iyirmi yeddi min altı yüz səksən) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 1.384 (bir min üç yüz səksən dörd) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*

## Təzyiqi artıran faktorlar hansılardır?



**Dünyada yüksək təzyiq problemi getdikcə artır. Demək oalr ki, hər 3 nəfərdən birində buna rastlanılır.**

Həmçinini, bu xəstəlik özü ilə bərabərində bir sıra problemlərə də yol açır.

**Bəs təzyiqi artıran faktorlar hansılardır?**

Həkimlər bildirirlər ki, bəzi dərmanlar təzyiqin yüksəlməsinə səbəb olur. Bunlar arasında soyuqdəymədə istifadə olunanlar, bəzi ağrıkəsicilər, depressiya, iştahkəsici dərmanlar, burun spreyləri ola bilər.

Bəzi içdiyimiz bitkilər də təzyiqi qaldırır.

Bəzən qəhvənin də təzyiqi artırdığını deyirlər. Amma buna dair hansısa araşdırma yoxdur. Əgər qəhvə içdikdən sonra ürək döyüntüsü və ya gərginliyiniz varsa, uzaq durmalısınız.

Bəs təzyiqimiz birdən-birə yüksələrsə nə etməliyik?

Bu kimi hallarda təlaşlanmayın. Tez-tez təzyiqinizi ölçməyin. İstirahət edin və rahatlanmağa çalışın. Əgər təzyiqiniz daima yüksəkdirsə, həkiminin məsləhət gördüyü tez təsiredən, dilaltı dərmanlardan faydalanın.

Səhər oyandıqdan sonra dərhal yoxladıqda biraz yüksək göstərə bilər. 1-2 saat sonrakı yoxlanış daha düzgündür.

İdrar kisəsi dolu və ya sidiyə getməkdə çətinlik çəkirsinizsə ölçmələr yüksək göstərə bilər.

Rahat olduqdan, dincəldikdən sonrakı yoxlamalar daha düzgündür. Yarım saat istirahət etdikdən sonra təzyiqinizi ölçə bilərsiniz.

Həyəcanlı, əsəbi olduğunuz anlarda yüksək olacağını unutmayın.

Gündə 2 dəfə yoxlaya bilərsiniz: Səhər və axşam.

Soyuq məkanlarda da təzyiqiniz yüksək ola bilər.

Daima oturaq şəkildə yoxlayın, hərəkət etməyin.

**Elan**

Mikayılov Elmidar Əyyub oğlunun adına verilmiş herbi vəsiqə itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeyməm Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1539



## İki həftə gəmidə ac-susuz qalan 47 nəfər öldü

**Şimali Afrikanın Atlantika sahillərindən Kanar adalarına gedən gəmidə problem meydana çıxıb.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə BMT məlumat yayıb.

Bildirilib ki, problem səbəbindən gəmidəki 47 nəfər iki həftə ac-susuz qalıb. Nəticədə gəmidə olan 47 nəfərin hamısı ölüb.

## 14 milyonluq evi əlindən alındı



**Hollivud ulduzu Nikolas Keycin Las-Veqasda yerləşən malikanəsi əlindən alınıb.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, buna səbəb isə aktyorun dövlət vergisindən yayınması olub. Nikolasın evi 2009-cu ildə məhkəmə tərəfindən müsadirə olunsa da, ulduz 14 milyon dollar vergi borcunu ödəməyib.

Məhkəmə bu yay aktyorun evini 6 milyon dollar dəyərində qiymətləndirib.

*Qeyd edək ki, N.Keyc malikanəni 2006-cı ildə 8,5 milyon dollara (təxminən 14 milyon 450 min manat) almışdı.*

## İşıqforlara da yazıldı

Türkiyədə vaksinasiyanın təbliği üçün maraqlı üsula əl atılıb




**Türkiyənin Zonquldak vilayətində koronavirusa qarşı vaksinasiyanın təbliği məqsədilə qeyri-adi üsula əl atılıb.**

Türkiyə mediası xəbər verir ki, bunun üçün yollardakı işıqforlardan istifadə olunub. Belə ki, yol tənzimləyicisinin işıqları üzərinə "Peyvənd ol, sağlam qal" şüarı vurulub.

*Yerli bələddiyyə üzvləri bu addımı insanların diqqətini koronavirusa qarşı peyvənd olunmanın vacibliyinə yönəltmək məqsədilə atdıqlarını bildiriblər.*

## "Ondan çox şey öyrəndim"

Aleks Rodrigez Cennifer Lopezlə 5 il davam edən münasibətlərindən söz açıb



**Nişanlısı müğənni Cennifer Lopezdən ayrılan idmançı Aleks Rodrigez 5 il davam edən münasibətlərindən söz açıb.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, Lopezlə olan xatirələrini xoş anlarla xatırlayan Rodrigez ona minnatdar olduğunu bildirib:

"Son bir neçə il üçün ona çox minnətdarıq. Uşaqlarımla mən ondan çox şey öyrəndik. İndi öyrəndiyimiz dərslər sayəsində önümüzdəki beş ili daha da gözəl etməliyik. İndi əla vəziyyətdəyəm. Hal-hazırda olduğum yer üçün Allaha çox minnətdaram. Və gələcəyə baxıram. Xüsusən də qızlarımın böyüməsini izləyirəm".

*Qeyd edək ki, Aleks Rodrigezin Nataşa və Ella adlı iki qızı var.*



# Təbiətin möcüzəsi...

## Bu göldə batmaq qeyri-mümkündür







**Lut gölü, digər adı ilə Ölüdəniz, İsrail, Fələstin və İordaniyanın kəsişdiyi bir mövqedə yerləşir. Bir zamanlar Lisan dənizinin bir parçası idi, ancaq suların çəkilməsiylə gölə çevrilib. Ölüdəniz bu gün dünyanın ən duzlu üçüncü göldür. Belə ki, göldə heç üzə bilməyənlərin belə batması qeyri-mümkündür.**

Lut gölü yalnız Orta Şərqin deyil, eyni zamanda dünyanın ən maraqlı göllərindən biri sayılır.

Göldə turistlər arxası üstə rahat kitab və ya qəzet oxuyurlar, hətta suyun üzündə mürgüləyənlər də var. Bu göl həm də dünyanın ən ünlü fotoqraflarına ev sahibliyi etməsiylə məşhurdur. Lut gölü dəniz səviyyəsindən 350 metr aşağıdadır.

Gölə girən bir çox insan vaxtını kürəyi üstə istirahət edərək keçirir. Göldə maksimum dərinlik 370 metrdir.

**Turan**

## Fotosunu paylaşdı

Yer-yerindən oynadı!






**İngilis model və aktrisa Lili Colenin kitabının təqdimatını etmək üçün ictimai media hesabında əfqan burxası geyərək şəkil paylaşması böyük reaksiyaya səbəb olub.**

Məşhur modelin, gündəmdən xəbərinin olmadığını söyləyərək özünü müdafiə etməsi təpki yaradıb. Dünya ölkədəki qadınlar və uşaqların aqibətindən narahat olarkən, məşhur ingilis modelin davranışı anlaşılmayıb. Son dövrdə qələmə aldığı kitabla gündəmdə olan ingilis supermodel, üzünü tamamilə bağlayan iki şəklini instaqramdakı təqibçiləriylə paylaşıb. Lili Colenin paylaşmalarından birində, mavi örtüklə üzünü tamamilə örtür. Dəyişən dünyamızda "Optimizmin səbəbləri" adlı bir kitab yazan model, iqlim dəyişikliyinə vurğu edir. Təqibçilərini kitabını almağa təşviq etməyə çalışan model, "Kitabım çıxdı. Hər səviyyədə müxtəlifliyi qucaqlayaq: bioloji müxtəliflik; mədəni müxtəliflik; düşüncə müxtəlifliyi; səslərin müxtəlifliyi; fikirlərin müxtəlifliyi" deyə yazıb. Colenin bir çox təqibçisi tənqid etmək üçün vaxt itirmədi və "instaqramı insan haqlarının üstündə tutduğu" üçün modeli qınadı. Bir ictimai media istifadəçisi, "Əfqan qızlarına edilən zülmə qarşı döyüşmək lazımdır, cosplay deyil. Bu iyrəncdir" deyə yazıb. Lili Colenin 95 min təqibçisiylə paylaşdığı foto üç gün boyunca səhifəsində qalıb. Cole burxanın "bir yoldaşdan borc alındığını" və "Taliban"ın Əfqanıstandakı irəliləyişindən xəbərdar olmadığını, paylaşmasının inanılmaz dərəcədə vaxtsız" olduğunu söyləyərək üzr istəyib.

**Turan**

## Nəsrin pozaları ilə diqqət çəkib



**Azərbaycanlı aktrisa Nəsrin Cavadzadə bu dəfə çimərlikdəki pozaları ilə diqqət çəkib.**

Sosial şəbəkələri aktiv istifadə edən aktrisa, dənizdə olan şəkillərini öz şəxsi "Instagram" hesabında paylaşıb. Qısa müddətdə Cavadzadənin krem rəngli və dekolteli paltarına çoxlu bəyənmə və şərh gəlib.

## Dərya onunla eşq yaşayır



**Aktrisa Dərya Şensoy iş adamı Celal Can Algüllə sevgilidir.**

Axşam.az xəbər verir ki, təxminən 4 aydır eşq yaşayan cütlük sosial media hesablarından birlikdə çəkdirdikləri fotoları paylaşıb.

*Qeyd edək ki, Dərya daha əvvəl aktyor Sarp Levendoğlu ilə sevgili olub. Onlar 4 illik münasibətin ardından ayrılıb.*